2023

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

www.kitabxana.net

Mir Cəlal Paşayev adına

Milli Virtual Kitabxananın təqdimatında

YYSİB

09.03.2023

İdris Şükürlü

Ömür çırağı sönmədi

www.kitabxana.net

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

www.kitabxana.net

Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında

"Zəfərin zirvəsi": Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi"

YYSİB-nin vətənpərvərlik, kreativ e-kitablar seriyası

Elektron kitab N 21 (16 - 2023)

Bu elektron nəşrlər Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin reallaşdırdığı, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın texniki-yaradıcı yardımıyla icra edilən, "Zəfərin zirvəsi": Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi" mövzusunda hərbi-vətənpərvərlik, kreativ layihəsi çərçivəsində hazırlanaraq yayımlanır.

Kreativ-bədii layihənin maliyyələşdirən qurum:

Azərbaycan Respublikasının Gənclər Fondu

http://youthfoundation.az

Silsiləyə daxil edilən elektron nəşrləri buradan izləyin:

https://kitabxana.net/e-library.php?cate=201

Rəsmi FB səhifəmiz:

https://www.facebook.com/kreativesger

İdris Şükürlü

Ömür çırağı sönmədi

Lənkəranlı Milli Qəhrəman,
Əsgər Hacı Ələkbər oğlu Əliyev
haqqında sənədli-bədii povest

Latın qrafikası ilə təkrar e-nəşri

Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

YYSİB və Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2023

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan Əbilov, yazıçı-kulturoloq, Prezident təqaüdçüsü

DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

"Ömür çırağı sönmədi" (sənədli povest), Bakı, "Əbilov, Zeynalov və oğulları" İTK, 2002, 500 nüsxə

“Zəfərin zirvəsi”: Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi”

AGF ilə Yeni Yazarlar və Sənətçilər İB-nin kreativ layihəsi

Azərbaycan Respublikasının Gənclər Fondunun 16-cı Qrant Müsabiqəsi çərçivəsində maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən üç ay 20 dekabr 2022 – 20 mart 2023-cü il tarixlərində reallaşdırılacaq “Zəfərin zirvəsi”: Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi” layihəsi həyata keçirilməyə başlayıb. “Gənclər arasında milli mənəvi dəyərlərin, ailə dəyərlərinin, əxlaq və etika normalarının təbliği” istiqaməti üzrə keçirilməsinə başlanılan fəliyyətlər haqqında YYSİB sədri, layihə rəhbəri Aydın Xan Əbilov geniş məlumatları media üçün açıqlayıb.

“Zəfərin zirvəsi”: Vətən müharibəsindəki qələbəmizin virtual-kreativ salnaməsi” kulturoloji-innovativ layihəsinin əsas məqsədi, adından da göründüyü kimi, II Qarabağ müharibəsindəki möhtəşəm qələbəmizin İKT alətlərindən, yeni imkanlarından yararlanaraq kreativ innovasiyalar və kulturoloji formatlarda yeni nəsil nümayəndələrinə, indiki və gələcək nəsillərə çatdırmaqdır. Layihə həm real, həm də milli İnternet resurslarını, Qlobal İnformasiya məkanında anadilli kontentlərini zənginləşdirməklə, yazılı və audio-vizual formatlarda yeni məhsullar ortaya qoymaqla, gənclər arasında milli-mənəvi dəyərlərin populyarlaşmasına səbəb olacaq, qazi və şəhid ailələrin nümayəndələrinə sayğı və sevgini yüksəltməyə xidmət edəcək.

Layihənin əsas hədəfi Qarabağda döyüşmüş, şəhid olmuş Lənkəranlı qəhrəmanlılar, eləcə də Kamran Əliyev və Romir Əliyev simasında müharibə iştirakçıları haqqında sənədli film çəkmək, İnternet TV formatında veriliş hazırlamaq, onların geniş yayımı, sosial şəbəkələrdə tanıtımını təşkil etməkdir. Feysbukda ayrıca Virtual Resurs yaratmaq, Vətən müharibəsinə həsr olunmuş müəlliflərin əsərləri, şəhidlər haqqında yazılardan ibarət rəqəmsal kitabların hazırlanması, yayımı, Bakı və Lənkəranda 2 təqdimat mərasiminin təşkili nəzərdə tutulub. Qarabağ

www.kitabxana.net

müharibəsi/münaqişəsi tarixi, mədəniyyəti, abidələri, savaşları haqqında, eyni zamanda yerli yaradıcı insanlarının əsərlərindən ibarət elektron nəşrlərin hazırlanması, ayrıca mini e-kitabxana bölümünün yaradılması / yayımı, tanıtımının təşkili nəzərdə tutulub.

Layihədə gənclər, eləcə də müxtəlif yaşda, cinsdə, fərqli intellektual səviyyədə olan şəxslər – real olaraq: Bakı şəhərində və Lənkəran rayonunda yaşayanlar, şəhid və qazi ailələrinin nümayəndələri, qazilər, kənd icmasının nümayəndələri, oxucular, İnternet istifadəçiləri, yaradıcı şəxslər, müəlliflər, virtual ədəbiyyatla maraqlanan yeniyetmələr, yaradıcı-kreativ gənclər bəhrələnəcək. Virtual olaraq: İnternet və sosial şəbəkələr vasitəsilə respublikanı, eləcə də dünyada yaşayan yeni nəsil nümayəndələri – xaricdə yaşayan soydaşlarımız, gənclər və tələbələri əhatələnəcəklər. Azərbaycanda və xaricdə yaşayan məktəblilər, yeniyetmələr, gənclər, tədqiqatçılar, xüsusi qayğıya ehtiyacı olan gənclər, yaradıcılıq qabiliyyətlərinin və alternativ – məsafəli təhsil imkanlarının artırılmasına, elektron təhsil vasitəsilə çalışanlar, İnternet istifadəçiləri, kitabxanaçılar, müəllimlər və başqaları yararlana biləcək.

Təklif olunan layihənin yetərincə təbiği və ictimaiyyətə çatdırılması işi düzgün işlənmiş media-plan vasitəsilə reallaşdırılacaq. Layihənin təqdimi və təbliğinə xüsusi önəm veriləcəkdir: istər ölkə daxilində, istərsə də dünyada Azərbaycanın möhtəşəm qələbəsi, Qarabağdakı Zəfərlə bağlı həqiqətlərin tanıdılması, Lənkəranlı qəhrəmanların igidliyi, əsərlərin geniş yayılmasına səbəb olacaq. İnternet resursları, sosial mediada, ayrıca saytlarda televiziyada və mətbuatda mövzu/layihə haqqında rəylər, fikirlər, məqalələr çap olunacaq, müzakirə xarakterli reportaj və süjetlər hazırlanacaqdır. Fəaliyyətlərlə bağlı aparılan işlərin hesabatları həm yazılı və elektron KİV-də yayımlanacaq, həm də qurumun rəsmi saytında yerləşdiriləcək. Layihənin yetərincə təbiği və ictimaiyyətə çatdırılması işi düzgün işlənmiş media-plan vasitəsilə gerçəkləşdiriləcəkdir. Layihənin təqdimatına və sosial şəbəkələrdəki virtual təbliginə xüsusi önəm veriləcəkdir: istər ölkə daxilində, istərsə də dünyada Azərbaycan, Qarabağ və qəhrəmanlar haqqında yaradılan sənət nümunələrinin geniş yayılmasına səbəb olacaq. Televiziya, radio, İnternet və ölkəmizin nüfuzlu mətbu orqanlarında, yeni mediada, İnternet saytlarında, İnternet TV, Fesybuk, Tvitter, İnstagram kimi sosial şəbəkələrdə həyata keçiriləcək layihə, e-nəşrlər, elektron şəbəkə resursu – mini-kitabxana haqqında ekspert rəyləri,

fikirlər, məqalələr çap olunacaq, müzakirə xarakterli reportaj və süjetlər hazırlanacaq, ictimaiyyətin müzakirəsinə buraxılacaq.

Layihə uğurla yekunlaşdırılandan sonra da fəaliyyətlər davam etdirilərək aşağıdakı istiqamətdə işlər həyata keçiriləcək. Davamlı olaraq Qarabağ qəhrəmanlarının tanıtımı istiqamətində İnternetüstü, müxtəlif formalarda fəaliyyətlər daha da genişləndiriləcək və ardıcıl işlər görüləcək. Yaradılacaq sosial şəbəkə resurslarında yenə də bu mövzuda müxtəlif materiallar paylaşılacaq. İnternetdə, elektron kitabxanada, sosial mediada, sosial şəbəkələrdə yeni formatlarda, vətənpərvərlik mövzusunda elektron kitablar, rəqəmsal nəşrlər, eləcə də yeni kreativ materiallar onlayn-oflayn yayımlanacaq, daimi fəaliyyət göstəriləcəkdir. Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş çəxslər haqqında hazırlanacaq elektron kitablardan ibarət virtual sərgi ardıcıl təşkil olunacaqdır. Mütəxəssislər tərəfindən bu layihənin həm peşəkar dairələri, həm geniş ictimaiyyət tərəfdən müzakirəsi, mətbuatda işıqlandırılmasına şərait yaradılacaq. Gələcəkdə milli-mənəvi dəyərlər və hərbi-vətənpərvərlik ədəbiyyatının müxtəlif istiqamətlərinə aid elektron kitabxanalar, eləcə də şəbəkə nəşrlərini özündə birləşdirəcək resurslar yaradılacaq. Milli Virtual Kitabxana daha da genişləndiriləcək, eyni zamanda ölkəmizin daxilində və xaricdəki anoloji İnternet kitabxanaların şəbəkəsinə qoşulması, qarşılıqlı-faydalı əməkdaşlığa xüsusi əhəmiyyət veriləcəkdir. Layihənin növbəti mərhələsi hazırlanaraq donor təşkilatlara təqdim olunacaq.

Ayxan – Hidayət Əbilli,
Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin
sədr müavini, yazar-bloqqer

www.kitabxana.net

İdris Şükürlü

Ömür çırağı sönmədi

(Sənədli povest)

Təkrar nəşr

Bakı – YYSİB – kitabxana.net - 2023

Müəllifin ön sözü

Odlar yurdu Azərbaycanın xəritəsinə baxanda gözümüzün önündə ərazicə çox da böyük olmayan cənub mirvarisi Lənkəran şəhəri canlanır. Qədim əraziyə və mübarizələrlə dolu tarixə malik olan Lənkəran rayonu Qarabağın od tutub yanan, işğal olunmuş torpaqlarının azad edilməsi uğrunda döyüş meydanlarında 170 nəfər şəhid qurban verib. Hələ də neçə-neçə itkindən xəbər-ətər yoxdur, şikəst olanların, əlillərin qan izləri müqəddəs torpaqlarda qalıb.

Yurd yerini yağı düşməndən xilas etmək üçün sinələrini sipər etmiş, ürəyi bütövlük hissi ilə dolu olan mərd oğullar bu torpağın sinəsinə şəhidlik adını öz qanı ilə yazdılar. Azadlıq fədailəri canlarını qurban verdilər ki, Vətən yaşasın, biz yaşayaq, torpaq sevgisi bir əbədi məşəl kimi sabahlara şəfəq saçsın!

www.kitabxana.net

Əsgər Hacı Ələkbər oğlu Əliyevin qəlbinə doğma torpaqlarımızı hifz etməkçün qala yaradan, ürəyində pəhləvan təpəri, gözlərində Simurğ odu olan cavan əsgərlərə qoşulub yad ayaqları altında tapdanan Qarabağ torpaqlarını təmizləmək arzusu hakim kəsilmişdi. Şair də gözəl deyib:

Kişi qəzəb-qəzəb təzdən doğular,

Səbri köksü altda aşıb-daşanda.

Torpaq da, Vətən də ürəkli olar

Oğullar yurdunda qayalaşanda!!!

Damarlarında axan qanı milli qeyrətdən, yurd təəssübkeşliyindən yoğrulmuş Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin kursantı Əsgər Əliyev inanırdı ki, igidlərin torpağa çilənən qanı gur selə dönəcək, oğulların qeyrəti tufana çevriləcək, yağı

düşmənin burnu ovularaq əzəli və əbədi torpaqlarımızdan süpürülüb atılacaqdır! Əsgər haradan biləydi ki, 1995-ci ilin mart ayında – Novruz bayramına bir neçə gün qalmış Azərbaycanda baş vermiş dövlət çevrilişinə cəhd göstəriləcək, ordu və xalq dövlətçiliyimizin müdafiəsinə qalxacaq, Konstitutiya dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüləcək!

Hər kəs öz taleyini, qismətini yaşayır. Olacaqları öncə heç kim bilmir. Qardaşın qardaşa güllə atmasına, yaşadığı ölkənin suverenliyini və ərazi bütövlüyünü təhlükə altında qoymasına heç bir vəchlə haqq qazandırmaq olmur. Axı, neçə-neçə əsgər və zabitin, bala yolu gözləyən ananın, atanın nə günahı var idi? Axı, torpaqlarımızın bir qismini düşmənlərin qəsb

www.kitabxana.net

etdiyi bir zamanda dövlətçiliyə xəyanət etməyə lüzum yox idi!

Bu kitab şəhidlik zirvəsində bitən, ömrü qərənfil ömrü qədər olan, məzarında qəlbin həzin, kövrək notları dinən, tunc büstə dönüb yenidən doğma məktəbə qayıdan qəhrəman Əsgər Əliyevin məsum xatirəsinə həsr edilib.

Əziz oxucu! Oxu və Əsgəri – general olmağı arzulayan Azərbaycan qəhrəmanını, dağ qartalını unutma! Unutma ki, «Qiyamət günündə alimlərin qələmlərinin mürəkkəbi şəhidlərin qanı ilə bir ölçülər» (Məhəmməd Peyğəmbər (S).

Əgər məndən soruşsalar…

Hardan başlanır Vətən? Çox tutumlu və dəyərli olan bu sualın cavabı müxtəlifdir. Vətənin haradan, nədən başlaması haqqında düşünərkən uzaqlara uçub gedən xəyalların qanadlarında ən qədim köklərə – dünyadan nəsil-nəsil getmiş ulularımızın məskun olduqları ərazilərə gedir, hələ sirləri tam açılmamış sal daşlar arasındakı mağaraların, qaya rəsmlərinin, zaman axarında mamırlaşmış məzar daşlarının önündə ayaq saxlayır, əsrlərin sərt ruzigarına dözüb qalmış və qəhrəmanlıq vüqarını itirməyən qala divarlarının, daşlaşmış pasportlarımız olan maddi-mədəniyyət abidələrimizin qarşısında böyük fəxarət hissləri keçirərək heyrətlənirik.

Tarixi abidələrimiz – maddi-mədəniyyət tariximizin əvəzsiz nümunələri xarici arexoloqların, etnoqrafların

www.kitabxana.net

və səyyahların diqqətini cəlb etmişdir. Məşhur fransız səyyahı və arxeoloqu Jak de Morqan cənub ərazisindəki qədim abidələri tədqiq edərkən heyrətini gizlədə bilməmiş, Fransaya göndərdiyi məktublarından birində yazmışdı: «Mən əsl arxeoloji cənnətə düşmüşəm». Morqan qardaşları Talış mahalında tədqiq edib üzə çıxardıqları eksponatların bir qismini Fransanın Sen-Jermen muzeyinə təhvil vermişlər.

Doğma yerləri qarış-qarış gəzib dolaşmaq, Vətən adlanan və əvəzi olmayan torpağı bağrıma basmaq arzusu bütün varlığıma hakim kəsilibdir. Əgər yeniyetmə cavanlar məndən soruşsalar ki, hardan başlanır Vətən, onlara belə cavab verərdim:

- Yurdumuzun dağı-daşı, Murovum, Dəlidağım, alınmaz qalmadı Vətən! Torpaq harayıdı, Şuşada xan sarayıdı, didərgin ahıdı, dildə qəmli bayatıdı, şəhidlərin məzarıdı, müjdə dolu qələbə baharıdı Vətən!

Sən məğrur dayan yurda dayaq, daim oyaq Azərbaycan əsgəri! Düşmənə qan uddur, qarşında diz çöksün yağı ləşkəri!

Bu dağ, bu məkan sənindir. Bu yer, bu Vətən sənindir. Sənindir ormanlar, sənindir Zəfər! Ulu torpağını qızılla döndər…

www.kitabxana.net

Hardan başlanır Vətən?

Mənsur şeir

Hardan başlanır Vətən?

Yurdumuzun daşından, qayasından, torpağından, meşəsindən, körpələrin beşiyindən?

Yoxsa Koroğlunun nərəsindən, Nəsiminin haqq səsindən, Xudafərin körpüsündən başlanır?

İlahi bir ehramdı, Vətənə borclu candı, əbədi şöhrətdi, yenilməz qeyrətdi, yaşayan millətdi, düşmənə nifrətdi, babalardan əmanətdi Vətən?

Bəlkə Babəkin kəsilmiş qollarından, şəhidlərin göyərən məzarından, torpağın əmdiyi al qanından, məmləkətin bayrağından başlanır Vətən?

Xocalı yanğısıdı, Füzulinin misrasıdı, nənələrin ağısıdı, ana laylasıdı, ürəyimin sədasıdı, çadırda yuva

www.kitabxana.net

quran didərginin göz yaşıdı, zəhərli qılıncı ovxardan salan polad qalxanımdı, Vətən!

Dinimiz, imanımız, gümanımız, inamımızdı, Quranımızdı Vətən.

Əyilməyən qalamdı, daş yaddaşımdı, ən uğurlu çağımdı, ülvi qərarımdı, vüqarımdı Vətən!

Yoxsa elə özümüzdən, içimizdən, bal tək şirin dilimizdən, heykəlləşən sözümüzdən, görən gözümüzdən başlanır Vətən?

Bəlkə… bəlkə… Nə çoxdu bu bəlkələr, Vətən bölən bölgələr, torpaqları bölümlər.

Məncə, ana bətnindən, evimizdən, elimizdən, yurdumuzun tarixindən, müqəddəs ruhumuzdan başlanır Vətən!

Canım sənə qurban, Vətən!

Azərbaycan Respublikası Prezidentinin

Fərmanı

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupunun təltif edilməsi haqqında

1. Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiklərinə görə aşağıdakılara «Azərbaycanın Milli Qəhrəmanı» adı verilsin:

Çıxarış:

www.kitabxana.net

Müdafiə Nazirliyi üzrə

Kursant Əliyev Əsgər Ələkbər oğlu (ölümündən sonra)

(Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi)

Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyev

Bakı şəhəri, 4 aprel 1995-ci il N-307

www.kitabxana.net

Ömür çırağı sönmədi

Sənədli-bədii povest

www.kitabxana.net

Elimizə, obamıza əziz bayram – Novruzun qədəm qoymasına lap az qalmışdı. Meşələrdə, çəmənlərdə novruzgülünün, boynubükük bənövşənin çiçəyi çırtlamışdı. Yamaclardan buğ qalxır, Günəşin həniri hiss olunurdu. Bəzi alça ağacları yazın isti nəfəsini gözləməyərək ağ çiçək duvağına bürünmüşdü. Bərəkətdən, paklıqdan, halallıqdan, mehribançılıqdan, təbiətin oyanmasından xəbər verən Novruz bayramında elimizin, obamızın gözəl adət-ənənəsi var: hamı doğma ocağa yığışır, bir-birini təbrik edir, bayram payı verir, tonqal çatıb üstündən tullanır, sanki bütün ağrı-acılarını çıxarmaqla daha parlaq sabahlara, əmin-amanlığa can atır.

Ələkbər kişinin evində bayram sürəsi üçün tədarük görülmüşdü. O, çərşənbə günü qonum-qonşularını da yaddan çıxarmır. Bircə nigarançılığı vardısa, o da Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində oxuyan oğlu Əsgər sarıdan idi. Çünki evə xəbər

göndərmişdi ki, çərşənbə günü Lənkərana gələ bilməyəcəyəm. Ancaq bəlkə Novruzda gəldim.

Ələkbər kişi də istəmirdi ki, kursant oğlunun süfrəsi bayram sovqatsız qalsın. Balıq ləvəngisi sevimli oğlunun çox xoşladığı yeməklərdən idi. Bir dəfə atası Əsgərin bayram payını Bakıya özü aparmışdı. Oğlu rəngbərəng boyanmış yumurtaları, yaşıl səmənini, müxtəlif çərəzləri, qovurğanı görüb atasına demişdi:

- Ata, nə zəhmət çəkib bir o qədər yolu gəlmisən. Çox sağ ol, Novruz bayramınızı təbrik edirəm. Çoxlu bayramlara, xoş günlərə qovuşasınız. Bilirsən, ata, qırmızı yumurtalar mənə uşaqlığımı xatırlatdı, ürəyim atlandı. Yadıma gəlir qonşu uşaqları ilə yumurta döyüşdürərdik, evlərə papaq atardıq, tonqal qalayıb üstündən atılardıq, ən fərəhli günlərimizi yaşardıq…

Atası başı ilə onun dediklərini təsdiq etdi və mənalı-mənalı gülümsədi. Əsgərin dostlarını da bayram süfrəsinə dəvət etdi…

www.kitabxana.net

Çərşənbəyə bir gün qalırdı. Oğlu Zaidi yanına çağırıb dedi:

- Oğul, biz evdə çərşənbəni Əsgərsiz keçirsək çox narahat olarıq, yemək bizə nuş olmaz. Sən bu gün Əsgərin bayram payını apar ver Əsgərə, sabah qayıt gəl, evdə çərşənbəni birlikdə keçirək.

Zaid elə bil atasının dediklərinə bənd imiş:

- Ürəyimdən deyirsən, ata. Günortadan sonra Bakıya çıxaram. Tez tədarük görün, mən də yır-yığış edib yola hazırlaşım.

Zaid ata-anasını, bacı və qardaşlarını çox sevir. O, Ukraynanın Avtomobil Nəqliyyatı İstismarı İnstitutunda oxuyub. Qardaşı Ziyad da bu şəhərdə iki institut bitirib, müəllim işləyir. Zaid 1993-cü ildə könüllü olaraq Qarabağın müdafiəsinə qalxdı, oddan-alovdan keçdi. Ağdamın Güllücə kəndində şiddətli döyüş zamanı sol dizindən düşmən gülləsi dəydi, dabanı zədələndi, sol çiynindən güllə yarası aldı.

Dizində dörd dəfə cərrahiyyə əməliyyatı keçirildi. O dizindən çıxarılmış gülləni indi də saxlayır. Doxsan dördüncü ilin yanvar ayının 2-də bu xəbər Ələkbər kişiyə çatır. Bir neçə gün Zaiddən soraq çıxmır, hətta onu şəhid olmuş hesab edirlər. Zaid bir il müalicə olunur, üzüntülü günlər arxada qalır, II qrup əlil statusu alır, ailə həyatı qurur, övladları dünyaya gəlir.

Qardaşı Nazir də Sumı şəhərində Kənd Təsərrüfatı İnstitutunu bitirib. Çox bacarıqlı, səmimi, alicanlı bir ziyalıdır. O da Qarabağ veteranıdır, hazırda gömrük sistemində işləyir, ali təhsilini davam etdirir.

Zaid qardaşını görmək həvəsilə Bakıya getmişdi. Yolboyu yol-yamaca, düzlərə tamaşa edirdi. Qarabağın ərazisindən keçərkən mavi Xəzərin sahillərini acgözlüklə seyr edir, cilvələnən lacivərd sular onun sərhəd bilməyən xəyallarını uzaqlara çəkib aparırdı. O, hər dəfə Lənkəranda və Bakıda Xəzərin qumlu sahillərində gəzib-dolaşarkən qırçın ləpələrin pıçıltısından ləzzət alar, qağayıların nəğməsinə

www.kitabxana.net

qoşular, saçlarını ayna sularda darayar, nədənsə sahilə qovuşmağa can atan dalğalar onun əksini çilikləyəndə Qarabağın odlu nöqtələri yadına düşərdi. Döyüş meydanlarında tez-tez Xəzəri gözlərinin önünə gətirər, hüdudsuz sularda, qartallar qıy vuran ənginliklərdə bir sakitlik, əmin-amanlıq, saflıq, asudəlik axtarardı…

Zaid Bakıya çatanda hələ şər qovuşmamışdı. Nədənsə ona elə gəldi ki, şəhərdə gərginlik hiss olunur. Adamlar XTPD barəsində həyəcanla danışırdılar. Deyirdilər ki, XTPD yaraqlıları 8-ci Kilometrdəki bazada, yaxınlıqdakı evlərdə, məktəblərin, uşaq bağçalarının damlarında mövqe tutaraq şiddətli atışmanı daynadırmaq istəmirlər. Ölən və yaralananlar vardır. Deyəsən, mühasirə həlqəsi getdikcə daralır, lakin yaraqlılar inad göstərirlər.

Zaid ürəyinin əvvəlkindən şiddətlə döyünməsini hiss etdi. Bədənində yolun yorğunluğu da elə bil artdı, sağalmış yaraları gizildədi. «Allah özü rəhm eləsin, -

fikirləşdi. – Birdən Əsgərgili də yaraqlıları tərksilah etməyə apararlar. Allah, bu nə müsibətdi, torpaqlarımız düşmənin caynaqlarında, bunlar isə qardaş qırğınında…»

Ürəyindəki qara-qorxu fikirlərlə Əsgərgilin yataqxanasına getdi. Əlindəki bağlamanı yerə qoymayaraq növbətçiyə:

- Kursant Əsgər Əliyevin qardaşıyam, onu görməyə gəlmişəm, - dedi. Nəsə fikirləşib: - Özüm də Qarabağ veteranıyam.

Növbətçi dedi:

- Qardaş, bu vurhavuru görmürsən. Burada heç kəs yoxdur, qardaşının harada olması da mənə məlum deyil. Səbr edin, bəlkə bir şey öyrənə bildik.

Bir neçə saat ötdü. Zaidin əlində bağlama quruyub qalmışdı. Axı, Əsgər harada idi? Niyə ondan bir soraq vermirlər? Heç vaxt onunla görüşməyə gələndə bu

www.kitabxana.net

qədər vaxt ötməmişdi, belə üzüntü, nigarançılıq və tələş keçirməmişdi.

Bir zabit gəlib növbətçi ilə astaca söhbət edib getdi. O, hərdən Zaidə tərəf də baxırdı. Artıq Əsgər həyatda yox idi. Ruhu uçub şəhidlərin ruhuna qovuşmuşdu. Bir neçə dəqiqədən sonra nə qədər dəhşətli və acı olsa da Əsgərin şəhid olması xəbərini qardaşına bildirəcəkdilər. Zaidin əlində bağlama, gözlərində yaş donub qalacaqdı. Ani olaraq xəyalı Lənkəranın Ləj kəndinə uçub gedəcək, orada hüzür mağarı gözlərinin önünə gələcəkdi. Ata-anasına, qardaş və bacılarına, qohumlarına necə deyəcəkdi ki, Əsgər artıq aramızda yoxdur. İlahi, bu nə müsibətdir? Qardaşının çərşənbə bayramını təbrik etməyə gəlmişdi, cənazəsini aparmaq ona qismət oldu. İndi olan-olmuşdu. Nə qədər ağır da olsa qardaş qardaşa güllə atmışdı. Düşmənə atılası güllələr burada, Bakıda öz qurbanlarını tapmışdı. Qəhrəman əsgərlərimiz dövlətə qarşı yönəldilən bu cinayətin qarşısını aldılar. Daha bir dövlət çevrilişi

cəhdi puça çıxdı. Respublikanın güc nazirlikləri Azərbaycanın suverenliyi, milli istiqlaliyyəti, rifahı naminə respublika Prezidentinin apardığı daxili və xarici siyasəti bir daha dəstəklədilər. Dövlətçiliyimizin qəsdinə duranlar layiqli cəzalarını aldılar. Bəs faciə zamanı şəhid olanları necə, həyata qaytarmaq mümkün olacaqmı?

Heyhat, unudulan dərd deyil! Novruz bayramına hazırlaşdığımız bir vaxtda neçə-neçə igidin ömrünə nöqtə qoyan faciəni qan yaddaşımızdan silə bilməyəcəyik…

Ələkbər kişi Ləj kəndində gündəlik qayğıları ilə məşğul ikən Bakıdan evlərinə doğru gələn acı ölüm xəbərini ağlına da gətirməzdi. Bilmirdi ki, Novruz bayramı evlərində yasa dönəcək. Təbiət oyanıb torpaqda baş qaldırırdı. O isə igid oğlunu torpağa tapşırırdı. Zaid Əsgərin çərşənbə balığını göndərmişdi, amma gələndə cavan qardaşının cənazəsini gətirdi…

www.kitabxana.net

Gizir Dadaş Mirzəyev «Azərbaycan Ordusu» qəzetində (3 may, 1995-ci il, N-9) «O general olmaq istəyirdi…» məqaləsində qəhrəman Əsgər Əliyev haqqında belə demişdir: «İki il idi ki, onun komandiri idim. Bütün hərbi qaydalara riayət edirdi. Sevib-seçdiyi zabit peşəsinə böyük məhəbbətlə bağlanmışdı. Bilmədiyini də bizdən soruşub öyrənir, getdikcə təkmilləşib zabit kimi yetişirdi. Onun gələcəyinə böyük ümidlə baxırdıq. Amma mart hadisələri ümidlərimizi puç etdi…

Hər şey olduğu kimi yadımdadır. Martın 16-da «həyəcan» siqnalı ilə bizi qaldırdılar. Qısa vaxt ərzində silahlar paylandı. Əsgər Əliyevi kazarmada saxlamaq istədim. Fikrimi bildirəndə razılaşmadı. «Dövlətimiz, müstəqilliyimiz, suverenliyimiz təhlükə altında olduğu anlarda mən kazarmada oturub hadisələri uzaqdan müşahidə edə bilmərəm» - dedi. Maşınlara oturub təyin olunmuş yerə getdik. Martın 17-də səhər tezdən kursantlara səhər yeməyi

aparmışdım. Əsgər uzaqdan mənə əl elədi. Bu mənim onunla son görüşüm oldu. Çevrilişə can atan qüvvələr Prezidentin müraciətinə məhəl qoymadılar. Döyüşlərin qızğın çağında Əsgərin ölüm xəbərini eşitdim. Mən özümü hadisə yerinə çatdıranda artıq onu xəstəxanaya aparmışdılar. Onun ölümünün şahidi olanlardan bunları öyrənə bildim: Döyüş başlayan kimi XTPD-nin əməkdaşları Əsgərin yaxınlığındakı dörd nəfəri ağır yaralayır. Əsgərin də ayağından güllə dəyir. Lakin yarası yüngül olduğundan o, yanındakı yaralılara köməyə tələsir. Onların dördünü də güllə yağışı altından çıxarır. Axırıncı yaralanmış zabiti maşına qoyarkən onu snayperlə başından vururlar. Əsgər aldığı güllə yarasından şəhid olur…»

…Yoldaşları – oxuduğu məktəbin rəhbərliyi, əsgər və zabitlər Əsgərin cənazəsi ilə vidalaşır, onu ata yurdunda torpağa tapşırmaq üçün Ləj kəndinə göndərirlər. Qardaşı Zaid, əsgər və zabit yoldaşlarından bir neçəsi martın 18-də yola çıxırlar.

www.kitabxana.net

Qəhrəmanın atası Hacı Ələkbər Əliyev o məşum günü xatırlarkən kövrəlir, ağır itki ürəyini ağrıdır. Ancaq təsəlli tapmağı, kişi qüruru keçirməyi də bacarır.

- Şəhid olduğu gündən Əsgər tək mənim oğlum deyil, müstəqil Azərbaycanın oğludur, fəxridir, - deyir. – Oğlum general olmaq istəyirdi, ancaq qəhrəman oldu. Ömrü qısa olsa da, şərəflə, namusla yaşadı, heç kəsə əyilmədi. Azad, müstəqil, suveren Azərbaycan amalı uğrunda şəhid olanların müqəddəs ruhları daim bizimlədir. Onların istək və arzuları Azərbaycanın nurlu sabahlarında yaşayır.

- Evdə heç nədən xəbərimiz yox idi, - deyə Ələkbər kişi yaddaşını varaqladı. Mən Qarabağ müharibəsində yaralanmış oğlanlarımın iztirabını çox çəkmişəm. Elə hey istəyirdim ki, evimizdə xalqımızın əziz bayramını yüksək səviyyədə, xoş ovqatla keçirək. Saat 11-də evin xanımı Firayə bazarlıq edib evə qayıtmışdı, bayram süfrəsinə hazırlıq görürdü. Mən Lerikdən hüzr mərasimindən Ləj kəndinə qayıdırdım, Kərgəlan

yolunda dayanmışdım. Axı, bizdə adətdir: bayrama qədər dünyasını dəyişən qohum-əqrəbanın, dost-tanışın ailəsinə başsağlığı verir, bayram payı aparırlar. Mən gördüm ki, bir «Ural» maşını, ardınca da bir neçə minik maşını İstisuya tərəf istiqamət götürdü. Elə bildim ki, əsgərlər təlim məşqləri keçirmək üçün harasa gedirlər. Yoldan ötərkən üstüörtülü «Ural» maşınının arxasınca baxdım. Əsgərlərin arasında kiminsə gizləndiyini hiss etdim. Sən demə, oğlum Zaid yolun kənarında məni görən kimi maşının kuzovunda uzanır ki, mən onları görməyim.

İstisu qəsəbəsinə gedən avtobus gəldi. Əl etdim, saxladı. Avtobusa mindim, cavanlardan biri mənə yer göstərdi, əyləşdim. Avtobusda gördüm ki, kəndimizin adamları, məni tanıyanlar mənə birtəhər baxırlar. Şübhələndim, ancaq daxili narahatçılığımı biruzə verməməyə çalışdım. Rabitə şöbəsinin müdiri Muxtar kişiyə baxanda gördüm ki, onun yanaqlarından yaş

www.kitabxana.net

süzülür. İstədim ki, soruşum: - Muxtar, bu nə hərəkətdir?

Muxtar gördü ki, mənim heç nədən xəbərim yoxdur, başladı zarafat eləməyə. Mən İstisu yolunda düşüb başladım piyada getməyə. Gördüm ki, hərbi komissarın müavini maşından düşür. Mən ona baxdım, nədənsə ürəyimə pis fikirlər gəldi. Bilmək istədim ki, görəsən komissarın müavini qəsəbəyə niyə gəlib, bəlkə bir hadisə baş verib.

Çox keçmədi ki, onun şəhərə tərəf qaytıdığını gördüm. Yenidən başladım kəndimizə tərəf addımlamağa. Bacanağım Sahibin qarşıdan gəldiyini gördüm. Yaxınlaşıb salamlaşdıq. Ondan soruşdum:

- Rəng-ruhun niyə qaçıb, Sahib, gözlərin də qızarıb?

- Gözümə qum düşüb, ondandı.

- Axı, yaxşılaşmışdın sən.

- Narahat olma, keçib gedər. Haradan gəlirsən, Ələkbər?

- Lerikə getmişdim, indicə gəlirəm.

- Oralarda nə var, nə yox?

- Salamatlıqdı.

Hələ söhbəti qurtarmamışdılar, hərbi komissarlığın işçisi və kənd ərazi icra nümayəndəsi Əhməd Muradov bizim bərabərimizə çatıb minik maşınından düşdülər və dedilər:

- Ələkbər, burda niyə durmusunuz? Biz də Ləj kəndinə gedirik, gəlin əyləşin maşına.

Ələkbər dedi:

- Gedək deyirsiniz gedək də. Bakıda baş vermiş hadisələrdən nə xəbər var? Bəlkə kəndimizdə bir hadisə baş verib?

www.kitabxana.net

- Heç nə baş verməyib, - deyə Əhməd məqamın yetişdiyini görüb sözünə davam etdi.

- Deyirlər ki, atışmada ölən və yaralananlar var. Yaraqlıların müqaviməti qırılıb və təslim olublar. Oğlunuz əsgər də dövlət çevrilişinin qarşısının alınmasında əsl qəhrəmanlıq göstərib, ayağından yaralanıb…

Ələkbər qışqırdı:

- Əhməd müəllim, yalan danışırsan! Oğlum yaralansaydı Zaid Bakıdadır, zəng vurub xəbər verərdi mənə. Yəqin Əsgər həlak olub, məndən niyə gizlədirsiniz!?

Ələkbərin yanaqlarından göz yaşları süzülməyə başladı. Fəhmi, ürəyindəki təlaş onu aldatmırdı. Evin alaqapısına yüz metr qalmış maşını saxlatdırdı. Yanındakılara dedi:

- Siz hələlik həyətə girməyin. Həyat yoldaşım xəstədir, birdən bu dərdə dözməz…

Evə qalmış Ələkbərin səsi tamam tutuldu. Həyətdə sakitlikdi. Eyvanı, evləri gəzdi, gördü heç kəs yoxdur. Təkcə Əsgərin anası Firayə fələyin gərdişindən, bala dağından xəbərsiz mətbəxdə xörək hazırlayırdı. Ağlı başından çıxırdı, nə etmək istədiyini bilmirdi. Yoldaşına bir söz demədi. Həyətə düşəndə birdən səsi açıldı və qeyri-ixtiyari öz balasını çağırdı:

- Əsgər hardasan!!! – Az qaldı huşu başından çıxsın.

Ələkbər çıxanda gördü ki, maşınlar dayanıb və adamlar dəstə ilə evə sarı gəlirlər. Oğlu Ziyad hamıdan qabaq evə girsə də Ələkbər onu görmür. Çünki gözləri də tutulmuşdu. O qışqıra-qışqıra maşınlara tərəf getdi. Ziyadla Zaid «Ata!» «Ana!» deyərək fəryad qopardılar, Ələkbəri qucaqladılar. Bütün kənd camaatı, uzaqdan-yaxından gələnlər həyətə axışdılar. Əsgərin al qırmızı qərənfillərlə bəzədilmiş tabutunu ayaqlarının izi qalmış doğma həyətdə endirdilər. Həmin matəm günü əlləri ilə yerə əkdiyi gül kolları, bəzək və meyvə ağacları da sanki

www.kitabxana.net

Əsgərə ağı deyir, saçlarını yolurdu. Həyətdə elə bir adam tapa bilməzdin ki, əlindəki dəsmalla göz yaşlarını silməsin. Ana, ata, bacı və qardaş fəryadı göyə büləndolmuşdu…

Firayə ananın qollarından tutmasaydılar, üz-gözünə çırpa-çırpa özünü həlak edəcəkdi. Ana milyon dəfə haqlı olaraq «balamın nə günahı?!» sualını verir, fəryad edirdi. Ananın suallarına heç kəs cavab vermək iqtidarında deyildi. Şairin misraları da aciz idi ananın dərdini, möhnətini dağıtmaqda.

Hər halda ümid çırağıdır, ürəyə dayaqdır şair sözü, kəlamı.

Şəhid anası

Açılmaz könlüm sənsiz,

Alışar dilim sənsiz.

Getmisən, can üstəyəm,

Deyirsən, ölüm sənsiz?

Dərdim sənsən, davam sən,

Suyum sənsən, havam sən.

Özün yurd, adın Vətən,

Əvvəl-axır yuvam sən.

Qara il yaman gəldi,

Vermədi aman, gəldi.

www.kitabxana.net

Söndü ümid çırağım,

Nə ağır zaman gəldi!

Dərd içini doğrasa da,

Mərd gəzən şəhid anası.

Yerin-göyün ağrısıdı

Sən dözən, şəhid anası.

Arif Fərzəli

Əsgərin anası Firayə xanıma demək istərdik ki, biz də bu dünyada qonağıq, ana! Bizim də əbədi məkanımız gec-tez torpaqdır. İnsan dünyasını dəyişdikdən sonra izi, yeri, əməli görünürsə, buna təəssüflənmək mənasızdır. İzi görünən, şərəfli adı qalan insanlar diri kimidir. Bizim də son mənzilimiz Əsgərin uyuduğu ana torpaqdır. Ömrümüz burada sona çatacaq, yaşıl yarpağa dönüb yenidən göyərəcəyik, gül bitirəcəyik!

Son qəmin olsun, ana!

www.kitabxana.net

Biz daim borcluyuq sana!

Hər şəhidin anası var,

Səninki də mənəm, oğul!

İstəyirəm qəbrin üstə,

Başdaşına dönüm, oğul!

***

Sən, ey şəhid anası, geymə qara libası! Südünü halal eylə öz qəhrəman oğluna, Əsgər səndən ayrıldı. Vətən aldı qoynuna!..

***

Duydum ağrının dadını,

Gördüm elin fəryadını.

Çəkə bilmərəm adını

Dağ-dağ oldu sinəm, oğul!

***

«Ölüm haqdır, onsuz da biz öləcəyik, lakin şərəfli ölüm, şəhidlik hər növ ölümdən qiymətlidir».

İmam Hüseyn(Ə)

Ələkbərin Lerikdə yaşayan qohumları, böyük bacısı Mina, Astaradan bacısı Güli, Cil kəndindən Rəhimə və başqaları qardaş dərdinə şərik olmağa gəlmişdilər. Cil kəndinin axundu Kərbəlayı Əli "Ya-Sin" surəsini oxudu, şəhidin ruhuna Quran tapşırdı. Lənkəran şəhər icra hakimiyyətinin başçısı Dilrübə xanım Camalova, digər tanınmış ziyalılar Əsgərin pak tabutu önündə vida nitqi söylədilər. Azərbaycanın suverenliyi və müstəqilliyi uğrunda şəhid olmuş Əsgərin xatirəsi, onun ölməz ruhu qarşısında baş əydilər. Şəhid Əsgəri böyük ehtiramla Ləj kəndində torpağa tapşırdılar. «Yerin behişt olsun, məzarın nurla dolsun. Allah sənə qəni-qəni rəhmət eləsin» - dedilər. Qəhrəman əsgərin məzarını təzə-tər gül-çiçək dəstələrinə qərq etdilər… Təsəlli tapdılar… «Son şəhidimiz olsun…» - dedilər.

www.kitabxana.net

…Kənd qəbiristanlığında yüz illərin məzar daşları arasından əzəmətli, möhtəşəm bir abidə ucalır. Bu abidənin mərmər başdaşına Əsgərin ölməz, nurlu, qəhrəman siması həkk edilib. Başdaşında qərənfillər, qələm və kitab, qəmli misralar diqqəti çəkir. Bəlkə də taleyin hökmünə, alın yazısına işarədir. Yoxsa neçə cild kitaba sığmayan ömrünün son akkordları, matəm simfoniyasıdır?!

Namərd güllәsinə tuş gəldi Əsgər,

Dağladı qəlbləri bu məşum xəbər.

O, bir igid idi Azərbaycana,

Tale niyə belə tez qıydı ona?

Sinə daşındakı misraları da sakitcə oxumaq olmur.

Vəsiyyət edirəm can verən zaman,

Gözümü sevimli dostlar bağlasın.

Olsa ürəklərdə məhəbbət yara,

Üstümə gələn dostlar ağlasın.

Yad edib qəbrimin üstə gələnlər,

Cavanlıq qədrini yaxşı bilənlər,

Sağlığımda mənlə deyib-gülənlər

Soyuq məzarıma baxıb ağlasın.

Yazılmış qısaca məzar daşıma,

Nələr gəldi bu dünyada başıma.

Gələn baxsın baş daşında yaşıma,

Dünya ləzzətini duyan ağlasın.

www.kitabxana.net

Necə də gözəl yazmısan, şair dostum, Oqtay Zəka!

Şəhidlərin baş daşların,

Düzə-düzə gəlir dünya.

İnsanların göz yaşların

Üzə-üzə gəlir dünya.

Əsrlər ötsə də adın yaddaşlardan silinməyəcək, mərd atanın mərd övladı!

Məzarının baş daşında – ayaq üstə əlindəki şanlı silah babalardan əmanətdi! Sənin andın o üçrəngli bayrağıma, yenilməyən torpağıma əmanətdi, Vətənimə sədaqətdi!

Xətaidən, Babəkimdən, həm Həzidən və Mirzədən, Baloğlandan, Cavad xandan öyrənmişdin

qəhrəmanlıq! Qollarına güc gəlmişdi, damarlarından qeyrət axırdı – olmalıydın sən general!

www.kitabxana.net

Lənkəran «Dostluq parkı»nda, qəhrəman dərsi aldığın Ləj kənd məktəbindədir – cavanlara kişilikdən, igidlikdən dərs verdiyin o tunc büstün!

Fəqət, bizə çörək verən, sonra da öz ağuşuna alan torpaq indi sənin yorğanındır, ulduzlu səmadır üstün!

«Ən ağrılı yaramdır!

Ölmərəm Qarabağsız…

Qarabağsız ölümə

Kəfən biçmək haramdır!..»

O pak ruhun Qarabağda – əsir torpağı dolaşır!

Köməyə gəl, ey ilhamım! Əlimdəki söz silahım – qələmim! Anaya təskinlik vermək istədik, bəs ataya necə, ona dözüm, səbr diləməyə, ürəyini ovundurmağa gücümüz çatarmı? Ailənin bütün

www.kitabxana.net

ağırlığı Ələkbər kişinin çiyinlərində olduğu üçün oğul dağı hamıdan çox onu yandırıb-yaxıb. Ələkbər kişinin tarıma çəkilmiş əsəblərini sakitləşdirmək heç də asan deyil. Onun fikirlərini olduğu kimi ifadə etməkdə qələm də, nəsr də, nəzm də acizdir. İçindəki dərd alışır, halal süd əmib halal ocağın başında haram tikə görməyən, zabit olmaq üçün Bakıya yollanan Əsgərin inamla dediyi sözlər atanın yaralı qəlbini deşir: «Ata, mən hərbçi olmaq istəyirəm. Vaxt gələcək siz məni general paltarında görəcəksiniz. Bilmək olmaz, bəlkə də böyük sərkərdə, iki dəfə Sovet İttifaqı qəhrəmanı, qvardiya generalı Həzi Aslanovun rəşadətini təkrarlamaq mənə nəsib oldu…»

Ələkbər kişi dünyagörmüş adamdı. Oğlunun cəsarəti, general olmaq arzusu xoşuna gəldi. Əsgərin alnından öpərək «Get, oğlum, bu yolda Allah sənə yar olsun!» - dedi.

İndi isə, ona ürək-dirək vermək zorunda qalmışıq. Ürək də yaman şeydir ha. Bir də gördün, dərd yükünü götürə bilmədi!

Şəhid talelərindən çox yazmışam. Çox ürək-dirək, təskinlik, baş sağlığı vermişəm. İstəmişəm ki, iç dünyamdan, ürəyimdən gəlsin, təbii olsun, ütülü sözlər olmasın. İndi də sözüm var. Lakin mən istedadlı şair eloğlumuz Misir Alarlının ilhamla qələm aldığı «Fədailər» poemasının sonuncu bölümünü kitaba daxil etməklə şəhid atası Hacı Ələkbər Əliyevə təqdim edir və təskinlik verirəm.

Atam, məni öz yolumdan saxladın,

Niyə belə üzülmüsən, qadası!

Gördüm səni öz anamdır ağladan,

Əriş-fəriş silkələyir sədası!

Səbirli ol, şəhidimin atası!

www.kitabxana.net

Elə bilmə, sənin balan şəhiddir,

Allah ilə aramızda şahiddir.

Ay Allahım, sən özün də şahid dur,

Qiyamətə qoyma qala qisası,

Səbirli ol, şəhidimin atası!

Dava günü meydan sular nər kişi,

Bu meydanda tülkülərin nə işi.

Belə getməz bu dünyanın gərdişi,

Öz arzuma çatasıyam, çatası,

Səbirli ol, şəhidimin atası!

Sənin balan Koroğluya oxşayır,

Ölməyibdir, ürəyimdə yaşayır.

Qarşısında Azərbaycan baş əyir,

Məzar daşı müqəddəslik nidası,

Səbirli ol, şəhidimin atası!

Mənim xalqım qədirbilən xalqdı, bil,

Bu dünyada olum-ölüm haqdı, bil,

Nankorları bu torpağın haqqı, bil,

Vallah, bir gün tutasıdır, tutası,

Səbirli ol, şəhidimin atası!

Yerdə qalmaz bu qırğınlar, bu qanlar,

Qeyrət nədir – biqeyrətlər nə anlar!

Qoxusundan hərcayılar, nadanlar,

Yalnız verər yada torpaq, yada su,

www.kitabxana.net

Səbirli ol, şəhidimin atası!

Fələk özü göydən yerə enməsə,

Müharibə alovları sönməsə,

Yurd yiyəsi öz yurduna dönməsə,

Çətin yuxu yatasıyam, yatası,

Səbirli ol, şəhidimin atası!

Gözlərimdə gülüş donub, gülmürəm,

Gözləyəsi günüm vardır, ölmürəm.

Bilsən niyə sənə yaxın gəlmirəm,

Ələm-qüssə adasıyam, adası,

Səbirli ol, şəhidimin atası!

Ətəyin çən, başın bulud, üzün ağ,

Görən deyər, çeşmə gözlü dağa bax.

Sənin balan uyuduğu bu torpaq,

Qəbrim olsun, şəhidimin atası!

Səbirli ol, şəhidimin atası!

***

Ələkbər Zülfüqar oğlu Əliyev 1946-cı il iyulun 1-də Lerik rayonunun Lüləkəran kəndində anadan olub. Mərhum atası Zülfüqar kişi Talış dağlarında şura hökumətinə qənim kəsilmiş Qaçaq Şahverənin dayısı oğlu idi. O yetim və tək uşaq olub, böyüdükdən sonra əkinçi, briqadir, anbardar, kolxoz sədri işləyib. 1986-cı ildə dünyasını dəyişib. Zülfüqarın əmisi oğlu Ələkbər Kərbəlayı idi, namaz qılırdı. Əmisi oğlunun

www.kitabxana.net

adını Ələkbərə, babasının adını isə Əsgərə atasının əmisi oğlu Kərbəlayı İzzət qoymuşdu. Hacı Ələkbərin babası Axund Hacı Ələsgər, atasının əmisi oğlu Şeyx Fazil mömin dindarlar olublar. Babaları Məşədi Hüseyn, Kərbəlayı Rüstəm, əmiləri Kərbəlayı Ələkbər, Kərbəlayı İzzət din-iman əhli idilər. Dörd qızdan sonra Ələkbər həyata göz açır, atası bu münasibətlə yeddi qurban kəsir, 300 kiloqram buğda paylayır fəqir-füqəraya. Sonra Tərlan adlı bir qardaşı da olur. Əmisi oğlu Feyruz Lənkəranda tanınmış şəxsiyyət, din xadimi idi.

Ələkbərin anası Şəhrəbanu xanım Məşədi Hüseyn qızı isə Talış dağlarında qaçaqçılıq hərəkatı ilə sıx bağlı olan Peyzəkücə kəndindən idi. 1998-ci ildə vəfat etmişdi. 1954-cü ildə Zülfüqar kişi Lənkəranın Ləj kəndinə (mənası sucaq olan yer deməkdir) köçməyə məcbur olur. Səbəbi də sovet hökumətinə qarşı mübarizə aparmış qaçaqların yaxın qohumu olması idi. Ona görə də onlara başqa gözlə baxır, həmişə

sıxışdırırdılar. Ləj kəndində yuva quran Ələkbər Əliyevin altı övladı həyata qədəm qoyur. Onlardan üçü barədə qısa məlumat verdik. Nazir isə BDU-da təhsil alır, Qarabağ müharibəsi veteranıdır. Oğlu Şövqi Lənkəran şəhər polis şöbəsində işləyir, iki övlad atasıdır. Qızı Gövhər Lənkəran Pedaqoji məktəbini bitirib, Ləj kəndində müəllimdir. Əsgər Əliyev 1995-ci il 4 apreldə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə Azərbaycan Respublikasının Konstitusiya dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə «Azərbaycanın Milli Qəhrəmanı» adına layiq görülmüşdür. 1975-ci ildə Lerik rayonunun Ələmbəyli kəndində yaşayarkən hərbi xidmətə çağırılmış Ağayev Fərhad İslam oğlu da bu şərəfli ada layiq görülmüşdü. Lənkəran şəhərindəki «Dostluq» parkında pyedestal üzərində Əsgər Əliyevin büstü ucaldılmışdır. Bu park Əsgərin adını

www.kitabxana.net

daşıyır. Şəhid Natiq Aslanov adına Ləj kənd orta məktəbində yaradılmış xatirə muzeyində də Əsgərin büstü qoyulmuşdur. Burada onun foto-şəkillərinə, şəxsi əşyalarına, qəzet yazılarına həyəcansız baxmaq mümkün deyil.

1995-ci il iyulun 23-24-də Respublika sarayında 13-17 mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyət mövzusuna həsr olunmuş ümumxalq nümayəndələri toplantısında Azərbaycan Prezidenti Heydər Əliyevin giriş və yekun nitqində, güc nazirlərinin məlumatlarında məruzə və çıxış edənlərin

fikirlərində mart dövlət çevrilişi cəhdinə düzgün qiymət verildi.

Mart hadisələri ilə əlaqədar respublikamızın hər bir bölgəsindən, şəhər, rayon və qəsəbələrdən Prezident Aparatına, redaksiyalara məktub və teleqram göndərənlər dövlətçiliyimizin qəsdinə duranları lənətlə damğalayır, belə mürtəce halların qarşısını qətiyyətlə almağı tələb edirdilər. Mart qiyamının yatırılmasında oğlu şəhid olmuş. Ələkbər Əliyevin Prezidentə nvanladığı məktub nə qədər kədərləndirici olsa da, bir o qədər iftixar və qürur hissi doğurur. Hadisələr zamanı igidlik göstərərək həlak olmuş Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin kursantı Əsgər Əliyevin atası Ələkbər kişi ürək ağrısı ilə yazırdı:

«Bir oğlum Qarabağda torpaqlarımıza qəsd edənlərlə döyüşdə əlil olub. Məni ağrıdan odur ki, digər oğlum Əsgər Əliyev özümüzkülərin xəyanətkar gülləri ilə qətlə yetirildi. Lakin təsəlli budur ki, oğlum Sizin və

www.kitabxana.net

bütün xalqımızın haqq işi uğrunda həlak oldu. Sabah yenə xalqımıza, dövlətimizə və Sizə qarşı hər hansı xəyanətkar əl uzansa, mən özüm də, qalan oğullarım da sinəmizi qabağa verməyə hazırıq. Biz ölkəmizin nicatını yalnız Sizdə görürük».

(Azərbaycan. Oktyabr – 94, mart – 95. Qəsd. Dövlət çevrilişi cəhdlərinin xronikası. – B: Azərnəşr. 1995. səh. 660)

AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ QƏHRƏMANI
ƏLİYEV ƏSGƏR
ƏLƏKBƏR OĞLU
1974 - 1995

www.kitabxana.net

Milli Qəhrəman Əsgər Əliyevin atası Ələkbər Əliyevin çıxışı

Möhtərəm Prezident!

Hörmətli toplantı iştirakçıları!

Müstəqil Azərbaycana, onun dövlətçiliyinə qarşı yönəldilmiş sonuncu silahlı qəsd cəhdini heç cür unuda bilmirəm. Xalq və qəhrəman silahlı qüvvələrimiz Sizin bir çağırışınızla ayağa qalxaraq sübut etdilər ki, ölkəmizdə qanuni dövlət hakimiyyətini devirmək mümkün deyildir. Sizin müdrik siyasətiniz, zəngin dövlətçilik təcrübəniz sayəsində o vaxt müstəqilliyimiz qorundu. Xalqı vətəndaş müharibəsinə doğru aparan düşmən qüvvələrə layiqli cavab verildi.

Həmin o faciəli mart hadisələrində oğlum Əsgər Əliyev də şəhid oldu. O, Bakıda Ali Ümumqoşun Komandirləri Məktəbində oxuyurdu, Yeni Azərbaycan Partiyasının üzvü idi. İgidliyinə, şücaətinə görə komandanlıq tərəfindən dəfələrlə təşəkkürə layiq görülmüşdü. Hərbçi sənətini də özü seçmişdi. Müstəqil, suveren Azərbaycanın keşiyində zabit kimi dayanmağı arzulayırdı. O, Sizin qarşısında dəfələrlə çıxış etmiş, and içmiş və andına sadiq qalmışdır.

Oğlum Əsgər martın 16-dan 17-nə keçən gecə sinəsini güllə qabağına verərək Azərbaycanın dövlətçiliyini qorudu. Bu, onun borcu idi. Siz ona Milli Qəhrəman adı verdiniz. Bəlkə də oğlum adi bir zabit olacaq, qəhrəman olmayacaqdı. Siz bu adı verməklə onu da şərəfli etdiniz, ailəmizə böykü diqqət və qayğı göstərdiniz, onu təkcə mənim yox, bütün Azərbaycan xalqının oğlu etdiniz.

www.kitabxana.net

Hörmətli Prezident! Şəhid atası kimi bütün bunlara görə Sizə minnətdaram.

Bir neçə gün əvvəl, martın 18-də Lənkəranda oğlum Əsgər Əliyevin məzarı önündə şəhər ictimaiyyətinin geniş mitinqi keçirildi. Oğlumun məzarı üstünə tər çiçəklər, əklillər qoyuldu. Şeirlər səsləndi. Bakıdan gəlmiş kursant yoldaşları xatirələrini söylədilər. Mitinq iştirakçıları Sizin rəhbərliyiniz altında Azərbaycanın dövlət müstəqilliyinin əbədi olacağına bir daha and içdilər. Nəzərinizə çatdırmaq istəyirəm ki, mənim digər iki oğlum ikinci qrup müharibə əlilidir.

Hörmətli Prezident! Lənkəranlılar Azərbaycanın müstəqilliyinin keşiyində həmişə sadiq dayanmışlar. Hələ 1994-cü ilin oktyabrında dövlət çevrilişi cəhdi zamanı Siz xalqa müraciət edən kimi lənkəranlılar kütləvi şəkildə icra hakimiyyəti binasının qarşısında toplaşdılar, Ayaz Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev, Əlikram Hümbətov, Mahir və Rövşən

Cavadovlar kimi Vətən xainlərinin mənfur əməllərini qətiyyətlə pislədilər. Azərbaycanın dövlət müstəqilliyini müdafiə etmək üçün Bakıya və Gəncəyə nümayəndələr yola salındı. Lənkəranda siyasi sabitlik təmin olundu.

Lakin mən deyərdim ki, Azərbaycan dövlət müstəqilliyini itirməyə 1993-cü ilin yayında daha yaxın idi. Bir sıra xarici dövlətlər millət satqınları ilə birləşərək dövlət müstəqilliyimizi hələ beşikdə ikən boğmaq qərarına g\əlmişdilər. Onlar hətta Azərbaycanın cənubunda bir qondarma respublika – «Talış-Muğan respublikası» da yaratmışdılar. Vətəndaş qarşıdurması yaranmış, Azərbaycanın parçalanması real bir hal kimi qarşıya çıxmışdı.

Hörmətli Prezident! Həmin dövrdə Sizin Bakıya gələrək Azərbaycanda siyasi rəhbərliyə başlamağınızla lənkəranlıların «Talış-Muğan ruspublikası»na qarşı əzmkar mübarizəsi Azərbaycanı real müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. 1993-cü il avqustun

www.kitabxana.net

23-ü bir növ Azərbaycanın «QKÇP»-sinə çervildi. Həmin axşam lənkəranlılar üç şəhid də verdilər. Sizin fərmanınızla onlar Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli ada layiq görüldülər. Fərmanınızda onlara bu şərəfli adın Azərbaycanın bütövlüyünün qorunmasına görə verildiyi bildirilir. Möhtərəm Prezidentimiz, ona görə də icazə verin lənkəranlıların xahişini Sizə çatdırım. Onlar xahiş edirlər ki, 1993-cü il avqustun 23-ü ölkəmizdə «Azrbaycanın bütövlüyü günü» kimi qeyd edilsin.

Mən bilirəm ki, lənkəranlıların həmişə Sizinlə birgə olmasına, Sizinlə birlikdə addımlamasına inanırsınız. Lənkəranlılar da həmişə çalışırlar ki, Azərbaycan Respublikasının bu ağır yükünü çəkməkdə Sizə köməkçi olsunlar. Lənkəran hadisələrindən sonra siyasi cəhətdən mürəkkəb rayonda sabitliyin qorunması lənkəranlıların Sizə, müstəqil Azərbaycana olan inamına əyani sübutdur.

İndi Sizin rəhbərliyiniz altında müstəqil Azərbaycan Respublikası Konstitusiyalı dövlətdir. Dövlətçiliyimizin qorunması, gələcək nəsillərin xoşbəxtliyi, müharibənin qələbəmizlə başa çatdırılması yolunda Sizə böyük uğurlar və cansağlığı arzulayıram. Qoy böyük Tanrı Sizi qorusun, xalqımıza çox görməsin və bütün bəlalardan hifz etsin.

Çıxışımı keçən il 13-17 mart hadisələrinə həsr olunmuş ümumxalq toplantısındakı yekun nitqinizdə dediyiniz sözlərlə bitirmək istəyirəm: «Siz də varsınız, mən də varam, hamımız birlikdə Azərbaycanı bu vəziyyətdən çıxaracağıq. Bu işlərin bəhrəsini biz də görəcəyik, bizdən sonra gələn nəsillər də».

Hörmətli Prezident, icazənizlə, burada əyləşən nazirlərimizə bir sualım var: Hörmətli nazirlər, bilirik ki, Azərbaycanın bütün ağırlığı sizin üzərinizdədir, onu siz çəkməlisiniz. Biz vətəndaşların bütün ağırlığı da sizin üzərinizdədir. Hörmətli daxili işlər naziri,

www.kitabxana.net

milli təhlükəsizlik naziri, baş prokuror, müdafiə naziri, mən iki gündür buradayam və sizin sözlərinizə qulaq asıram. Mən siyasətçi deyiləm, siyasətdən başım çıxmır. Xalqa müraciət edirsiniz ki, filan partiya belə oldu, - açıq deyirəm, mən partiyaların adını bilmirəm, savadsız adamam, - nə bilim, filankəslər belə düşmən oldu, elə düşmən oldu.

Bu iş sizin əlinizdədir, haraya tərpənsəniz, xalq da sizin arxanızcadır. Bunu birdəfəlik bilin. Məsələn, hörmətli Baş prokuror Eldar Həsənov dedi ki, 110-120 nəfər XTDP-çinin anaları övladlarını buraxdırmaq üçün müraciət ediblər. Siz məndən yaxşı bilirsiniz, o zaman hörmətli ağsaqqalımız, rəhbərimiz bir həftə idi XTDP-çilərə deyirdi ki, silahı yerə qoyun, gəlin qan tökməyək. Onlar hörmətli atamızdan fərman istədilər. Fərman da verdi, bildirdi ki, sizə dəymərəm, sizi tutmaram, gəlin bu qanı tökməyin. Bəs o valideynlər – analar, atalar onda bunu görmürdülər? Mən də valideynəm. Mən balamı əziz bu gündə – ildə

bir dəfə olan Novruz bayramında torpağa tapşırmışam. Bəs mənim ürəyim ürək deyil? Balamı kimin pulu ilə böyütmüşdüm? Onu köhnə pencəyimlə böyütmüşdüm, heç kəsin qəpiyində də gözüm yox idi. Mən o qanı bağışlamaram!

Vaxtilə oğlumun oxuduğu hərbi məktəb Azərbaycanda ən böyük hərbi məktəbdir. Azərbaycanın ən ağır məktəbidir. Bütün ağırlıqlar o məktəbin üzərinə düşür, hərbi işçilər bunu yaxşı bilir. Oğlumun qonşu rayondan – Yardımlıdan olan kursant yoldaşının atası bayram günü oğlunu gözləyirdi ki, ona nişan aparsın. Lakin nişan üzüyünü oğlunun barmağına keçirib onu torpağa tapşırdı. Bəs o, övlad deyil, ata deyil! Mən bunu bağışlamaram!

Hörmətli nazirlər, siz qabağa düşün, biz də sizinləyik. Bizdən sonra balalarımız da, nəvələrimiz də Vətənin, xalqın yolunda hazırdırlar.

www.kitabxana.net

(«Azərbaycan Milli Dövlət quruculuğu yolunda» - B:Azərnəşr, 1996, səh.159,160,161.)

Ələkbər Əliyev jurnalistlərlə görüşərkən həmişə təəssüflə deyir:

- Oğlum Əsgərin milli xəyanətkarların gülləsinə tuş gəlməsi məni həmişə narahat edir. İtki ailəmiz üçün çox ağır olsa da, təsəlli tapıram, şərəf, duyuram ki, oğlum dövlətçiliyimizin qorunması yolunda canını əsirgəməyib, qurban verib. Bir də axı, tək mənim oğlum şəhid olmayıb. Əziz balasını Novruz bayramında torpağa tapşıran ürək daş-dəmir deyil ki, belə ağır faciəyə, sitəmə tab gətirsin! Axı, öldürəni də, ölənləri də ana doğub! Məgər cinayətkar qatillər oğullarımıza güllə atanda bunu fikirləşmədilər?! Allahın, insanların yolundan bu qədər çıxmaq olarmı? Mən arzumuzu ürəyimizdə qoyan xainləri heç vaxt

bağışlamaram! Dünya müsəlmanlarının qeyd elədiyi Novruz bizim ailənin «qara bayramı»na dönsə də, gələcəyimiz üçün şad günə çevriləcək…

Misir Alarlının «Kərbəla qəhrəmanları» kitabı Ələkbərin çox xoşuna gəlib. Xüsusilə də «Fədailər» poeması. Bu əsər fədailərə güzgü tutan dəyərli nümunədir. Hətta yanıqlı misraları Ələkbər kişi özü nişanlayıb.

Od-alovdan çıxan ulu millətəm,

Üstümə hürməsin hər yoldan ötən.

Açılan atəşə, əmr etsə Vətən,

Elə öz köksünü sən sipər, oğlum!

Düşmənim görməsin, ağlar gözüm var,

Kişiyəm, kişidə dərdə dözüm var.

Düşməni yurdumdan, bircə arzum var,

Salın birdəfəlik dərbədər, oğlum!

www.kitabxana.net

Hacı Ələkbərin saç-saqqalına indi-indi dən düşsə də, yaşına görə cavan görünür. Həmişə şad-xürrəm görünən Ələkbərin oğlu şəhid olduqdan sonra onun gözlərinin dərinliyində qəmli baxışları sezilir. O, təkcə yaşadığı kənddə və rayonda deyil, Azərbaycanın çox yerində tanınıb. Milli Qəhrəman və Qarabağ müharibəsinin iştirakçısı olan oğulları – Əsgər, Nazir və Zaidlə öyünüb fəxr edir. Allah adamı kimi də Ələkbər kişinin xətrini çox istəyirlər. 1999-cu ildə müqəddəs Həcc ziyarətində olmaq ona nəsib olmuşdur.

…Ələkbər kişi bir neçə gün idi ki, nəvələri ilə İrandan qayıtmışdı. O, gecə yuxuda gözəl bir bağ görür. Bu bağa uzanan yolu Ələkbərə göstərib deyirlər: sən bu yolla axıracan getməlisən, ora sənə qismətdir, peşman olmayacaqsan…

İrandan qayıdan ərəfədə Lənkəran Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Dilrübə xanım

Camalova tapşırır ki, Ələkbər Əliyevə zəng vurun qəbuluma gəlsin.

Telefon zəngindən sonra Ələkbər maşına minib Lənkərana gedir. Yol boyu gördüyü yuxu barədə fikirləşir. Görəsən bağa uzanan yol onu hara aparırdı?

Dilrübə xanım Ələkbəri mehribanlıqla qəbul edir, ailəsinin qayğıları ilə maraqlanır. Onu yanındakı qonağa göstərib deyir:

- Bu kişini deyirdim. Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin atasıdır, adı Ələkbərdir. Bəlkə televiziya ilə çıxışına da baxmısınız.

- Narahat oldum, - dedi Ələkbər. – Evdə dedilər ki, Dilrübə xanım bir neçə dəfə zəng vurub səni soruşub.

- Ələkbər, səni müqəddəs Həcc ziyarətinə göndərmək istəyirik.

- Vəsaitim çatmaz, Dilrübə xanım.

www.kitabxana.net

- Bu barədə narahat olma. Bütün yol xərcini hökumət öz üzərinə götürür. Sən öz ziyarət savabını qazanmısan. Sən öz əziz balanı Vətən yolunda qurban vermisən. Müqəddəs Kəbə ziyarətinə sənin kimi pak və təmiz, mərd adamlar getməlidir.

- Şükür sənə, İlahi, yuxum çin oldu, - deyə Ələkbər razılığını bildirdi. – Həcc ziyarəti hər bir müsəlman qarşısında beş borcdan biridir. Allahın müqəddəs evini ziyarət etmək, Kəbənin nuruna boyanmaq çoxdankı arzum idi. Arzumun çin olmasında köməyinizə görə minnətdaram sizə…

Ələkbər kişi evə sevincək qayıtdı. Qonum-qonşuları, övladları ilə halallıq etdi. «Deməli, gördüyüm yuxu gerçək olacaq. Məkkə və Mədinə torpağına qədəm qoyacaq, Məscidül-Həramda, Ərəfatda, Minada, Məşərdə ibadət edəcək, Zəmzəm suyu qəlbimi sərinlədib daha pak əməllərə qovuşduracaq, daxili dünyamda oyanmış qeyri-adi hisslər məni Allaha,

Həzrəti Məhəmməd Peyğəmbərə (S) daha yaxın edəcək…»

Ciddə hava limanında təyyarədən endikdən sonra avtobusla Məkkeyi-mükərrəməyə yola düşdülər. Mənzil başına çatıb Əbdül-Əziz mehmanxanasında qərar tutdular. Hacı Salman və Hacı Surxay zəvvar dəstəsinə bələdçilik edirdilər. Məqam yetişən kimi əllərini uca göylərə qaldıraraq üzünü Peyğəmbərin (S) pak məzarına tutdu:

- Salam olsun, Sənə, ya Allahın Rəsulu, bir də Allahın rəhməti və bərəkəti… Şükürlər olsun ki, mənə öz beytinin ziyarətini qismət elədin. Pərvərdigara, Səni and verirəm öz izzəti-cəlalına, düşmənlər üzərində qələbəmizdə bizə kömək ol, müharibənin alovunu başımızın üstündən götür, Azərbaycanın bayrağını daim uca elə, bizə haqq yolumuzda yardım et! Amin!

Həzrəti Peyğəmbərin (S) doğulduğu məkanda olmaq Hacı Ələkbərə yuxu kimi gəlirdi. Rəsuli-Əkrəmin hüzurunda həmd-səna etməkdən yorulmurdu.

www.kitabxana.net

Valideynlərinin, həyatdan köçmüş doğmalarının, şəhidlərin, qəhrəman oğlu Əsgərin ruhuna salavat çevirdi, namaz qıldı. «İlahi, Səndən böyük qüvvət və qüdrət yoxdur!..»

Peyğəmbərimiz (S) buyurmuşdur: «Vətəni sevmək imandandır». Hacı Ələkbər bir də bununla təskinlik tapır ki, şəhid oğlu Əsgər Vətəni, xalqı, respublikasını, valideynlərini sevən imanlı, axirət övladıdır. Mədinədə «Şühədai-Ühüd» qəbiristanını ziyarət edərkən Bakının Şəhidlər Xiyabanında torpağa tapşırılmış şəhidlər yadına düşdü. Ühüd fədailəri də, Azərbaycanın qəhrəman oğulları da haqq-ədalət, namus, qeyrət, yüksək amallar uğrunda canlarını qurban veriblər. Həzrəti Peyğəmbərimiz (S) də 1400 il bundan qabaq İslam dininin qələbə çalacağına inanırdı. Azərbaycanda da əbədi sülh, əmin-amanlıq tezliklə bərqərar olacaq, haqq işi qələbə çalacaq…

8 noyabr 1974-cü il. Lənkəranın Ləj kəndində yaşayan Ələkbər kişinin ailə üzvlərindən biri də

artmışdı. Oğlan uşağının adını Əsgər qoydular. Onu əzizlədilər, sevə-sevə böyütdülər. Düşmən qarşısında çəpər ol, torpağına sipər ol, - dedilər. Adını doğrultmaq, arzusuna çatmaq üçün Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə üz tutdu. Orta təhsilini başa vurduğu Haftonu qəsəbə məktəbinin müəllimləri də, «Ata, mən hərbçi olmaq istəyirəm. Qəhrəman Həzi aslanov kimi» arzusunun çin olmasına şübhə etməyən Ələkbər kişi də Əsgərin parlaq sabahına, gələcəyinə, istedadına inanırdılar. 1992-ci ildə ali hərbi məktəbin tank-artilleriya fakültəsinə daxil olaraq gələcəyin zabiti dərslərini həvəslə oxumağa başladı. O, general olmaq istəyirdi, lakin qəhrəmana dönüb doğma kəndinə qayıtdı. Məlum mart hadisələri baş verəndə respublikanın prezidenti qarşıdurmanı sülh yolu ilə nizama salmağa çalışırdı. Amma təəssüf ki, əks tərəf bu müdrik çağırışı eşitmədi, silahlar «dilə» gəldi, qan töküldü, öz qılıncımız öz başımıza endi. Əsgər də əlinə silah alıb respublikanın suverenliyini, müstəqilliyini

www.kitabxana.net

qoruyanların sıralarında idi. O son nəfəsinədək dövlətçiliyimizi müdafiə etdi. Əsgər kimi neçə-neçə igid şəhid olsa da, müstəqilliyin başının üstünü almış təhlükə sovuşdu, yaraqlılar tərksilah edildilər.

Bəs Hacı Ələkbər özü sevimli oğlu Əsgərin son döyüşü barədə nə bilir? Gizir Dadaş Mirzəyev hər dəfə kursant Əsgərdən söhbət düşəndə yanıb-yaxılır:

- Biz martın 16-da hərbi tapşırıq aldıqdan sonra «həyəcan» siqnalı ilə silahlandıq. Gördüm ki, komandiri olduğum Əsgər də döyüşə tam hazır vəziyyətdədir. O çox intizamlı, bacarıqlı idi, kamil bir zabit kimi formalaşırdı. Gələcəyinə böyük ümid bəsləyirdik. Bilirdim ki, onun iki qardaşı Qarabağ mübaribəsində yaralanıb. Ona görə də Əsgərin atəş altına düşməsini istəmirdim. «Əsgər, sən gəlmə, - dedim. – Ola bilsin biz ölümə gedirik. Başımıza bir iş gəlsə sən bizi unutma». Deyəsən bu sözlərim Əsgəri təsirləndirmişdi. İsrar edərək «Siz gedirsiniz, mən də gedəcəyəm. Dövlətimiz, müstəqilliyimiz,

suverenliyimiz təhlükədə olduğu anlarda mən kazarmada oturub müşahidə edə bilmərəm» - dedi. Və o cəld hərəkətlə maşına mindi. Martın 17-də isə səhər tezdən kursantlara yemək aparırdım, onu sonuncu dəfə gördüm. Ayağından yaralanmasına baxmayaraq dörd yaralını güllə yağışı altından çıxarır. Onlardan biri zabit idi…

Ağır yaralanmış kursant yoldaşlarından biri əzablara dözməyərək Əsgərə deyir:

- Məni vur, öldür, bu ağrılara, qatillərin qansızlığına dözə bilmirəm…

Əsgər onu qucaqlayaraq təhlükəsiz yerə aparır ki, ikinci gülləyə tuş gəlməsin.

- Sən nə danışırsan, qardaşım, - deyir Əsgər. – Yaran çox da ağır deyil, yaşayacaqsan. Bəs deyirdin Lənkərana birlikdə qonaq gedəcəyik, Həzi Aslanovun abidəsini ziyarət edəcəyik… Özünü ələ al, darıxma, qatillər öz cəzasını alacaq…

www.kitabxana.net

Güllə yarasından al qana boyanan zabit isə Əsgərə deyir:

- Sən yüngül yaralanmısan, qaç canını qurtar. Bizə güllə atanlardan yaxşı heç nə gözləmə. Onların gözünü qan tutub, get, oğlum… Sən cavansan hələ… Səni də vurarlar…

- Siz nə danışırsınız, cənab zabit? Mən sizi bu halda qoyub hara gedə bilərəm? Bəs əsgər andım? Mən sizdən artıq deyiləm ki… Məndən ötrü nigaran olmayın…

XTPD-nin yerləşdiyi baza ölüm, qan çanağına dönmüşdü. Ölkə vətəndaş müharibəsinə, qardaş qırğınına hamilə idi. Yaraqlı azğınlar döyüş əməliyyatını tədricən genişləndirmiş, iriçaplı pulemyotları, uzaqdan idarə olunan paketləri, avtomat qumbara atanları işə salmışdılar. Onlar qısa bir vaxtda böyük bir məhəllədə evlərin, məktəblərin, uşaq bağçalarının damlarında mövqe tutmuşdular. Yaraqlılar XTPD-nin şəxsi heyətinin əfv olunacağı

barədə fərmana da məhəl qoymadılar. Silahlı qruplaşmalar gecə saat 4-də hökumət qoşunlarının bölmələrini yarmaqla, dövlət əhəmiyətli obyektləri tutmağa can atırdılar. Həmin vaxt hökumət qoşunları hücuma keçdi və səhər saat 11.40 dəqiqədə silahlı qruplaşmalar darmadağın edildi. Respublikanın rəhbərliyini zorakılıqla dəyişdirmək, vətəndaş müharibəsinə sürükləmək cəhdləri puça çıxdı.

…Atışma şiddətlənirdi. Əsgər əsgər andına sədaqətini nümayiş etdirdi. Müxtəlif istiqamətdə atılan ölümsaçan güllələrdən qorunmaq çətin idi. Axırıncı yaralanmış zabiti xilas edib maşına qoyarkən dünya-aləm Əsgərin gözlərində qaraldı. İkinci güllə yarası ölümcül oldu. Əli qurumuş, gözləri kor olmuş, düşməndən betər alçaq! Sən Əsgərə necə qıydın? Nə üçün onun arzularını ürəyində qoydun? O, bu tezliklə ölmək istəmirdi, general olmaq istəyirdi. Bu gülləni Qarabağda düşmənə atmalıydın, yurddaşına yox!

www.kitabxana.net

Bir göz qırpımında ölmək olarmış, İlahi! O, canından çox sevdiyi torpağa əyildi. Sanki ana torpağa səcdə edirdi. «Məni bağışla, - deyirdi. – Səni düşməndən təmizəməyə ömrüm çatmadı… Xəyanətin qurbanı oldum… Xəyanətin…»

Yandıran kim, yanan kimdir,

Görün kim kimi yandırdı.

Canım elə alovludur,

Barmağım simi yandırdı.

Ayrılıq nə, ölüm nəydi,

Əyilməzdim, fələk əydi.

Sabahıma güllə dəydi,

Kömgöy arzumu yandırdı.

«Öldü» deməsin düşmanım,

Yatır yaralı aslanım.

Gicgahıma vuran qanım,

Dolub gözümü yandırdı.

İlahidən nə istədim,

Görün nə oldu qismətim!

Səməndər tək məhəbbətim,

Axır özümü yandırdı.

Əsgərin xətrini istəyənlərdən biri də onun əziz müəllimi, mayor Cabbar Hüseynov idi. O, Əsgəri xatırlarkən köks ötürdü, həyəcanlı, ölüm, qan qoxulu günləri xatırladı.

www.kitabxana.net

- Əsgər Əliyev hərbi nizamnamələri öyrənir, biliyini daim artırırdı. Xarakteri ciddi olduğu qədər, qəlbi təmiz, cəsur, dostluqda sədaqətli idi. Hərbi və dövlət sirrini qorumağı bacarırdı. O, komandirlərin tapşırıqlarını sözsüz yerinə yetirirdi, yüksək döyüş və siyasi hazırlığa malik idi, hamının etimadını qazanmışdı. Gözündən quş da yayınmazdı. Hərbi məktəbi bitirdikdən sonra təhsilini xaricdə davam etdirmək istəyirdi. Torpaqlarımızın düşmən tapdağı altında qalması, qarabağlıların yurd-yuvasından didərgin düşməsi onun saf ürəyini həmişə ağrıdırdı. «Vətən əmr etsə, düşməni zəbt etdiyi torpaqlardan vurub çıxaracağıq, şəhidlərimizin qisasını yerdə qoymayacağıq» deyirdi. O, öləsi oğul deyildi, biz onu itirdik…

Əsgərin qəhrəmancasına şəhid olmasını eşidən kimi Cabbar Hüseynov üç zabitlə birlikdə hadisə yerinə gedib. Əsgərin başı üzərində onu qətlə yetirənlərə nifrətini bildirib. «Vətən bizə arxalanır», - deyərdin

oğul. – İndi səni kim əvəz edəcək?!. «Yaralansam, anam bilməsin» deyərdin. Bəs şəhidliyini necə? Ata-anana nə cavab verəcəyik....»

Baş leytenant Vilayət Babayev hər il Novruz bayramı gələndə qanlı-qadalı mart hadisələrini xatırlamaya bilmir:

- Novruz bayramına az qalırdı. Bayramı bir yerdə qeyd eləməyi qərara almışdıq. Süfrəmizdə Lənkəran nemətləri də olacaqdı. Gözləmədiyimiz halda qəfildən baş vermiş növbəti dövlət çevrilişi cəhdi hər şeyi alt-üst etdi. Məsəl var, deyirlər: Sən saydığını say… Əsgərin həlak olması xəbəri məni bərk sarsıtdı. Əlimdən təəssüflənməkdən başqa bir iş gəlmədi. O, yaxşı oxuduğu kimi, deyib-gülməyi, başqalarını da öz sevincinə qatmağı bacarırdı. Biz nakam qardaşımızın adını, qəhrəmanlığını xatırlayıb həmişə onunla fəxr edəcəyik…

Manqa komandiri Mobil Ovçuyev «Azərbaycan ordusu» qəzetində Əsgər Əliyevin ata-anasına

www.kitabxana.net

başsağlığı vermişdi. Bildirmişdi ki, indi sıralarımızda Əsgərin yeri boş qalıb. Çalışıb onun arzularını gələcəkdə biz həyata keçirəcəyik. Mobil xatırlayır:

- Xalqımızın qəhrəman oğullarından söz düşəndə Əsgər deyirdi ki, mən də tank generalı olub, həmyerlim, ikiqat qəhrəman Həzi Aslanovun yolunu Qarabağda davam etdirəcəyəm, erməni qəsbkarlarını yerlərimizdən qovub çıxaracağıq. Vətənini, millətini sevən oğul idi. Bu yolda canından keçməyə də hazır idi. Küçələrdə boş-boş veyillənən cavanları görəndə əsəbləşirdi. «İndi bu gənclərin yeri Vətənin səngərləridir, - deyirdi. – Respublikamızın başının üstündə müharibə kabusu dolaşdığı vaxtda qeyrətli oğullar cəbhə bölgələrinə getməlidirlər».

Şair də bu barədə gözəl deyib:

Haydı, igidlərim, cürət vaxtıdır,

Yeriyin, yeriyin düşmən üstünə.

Ya olum, ya ölüm – qeyrət vaxtıdır,

Yeriyin, yeriyin düşmən üstünə.

İndi xalqın güvənc yeri sizsiniz,

Babəkin, Həzinin biri sizsiniz,

Bu ölü torpaqda diri sizsiniz,

Yeriyin, yeriyin düşmən üstünə…

…Novruz ətri, bayram təravəti el-obadan çəkilməmişdi. Atanın daxilini didib-parçalayan bir yoxluq vardı. Bu yoxluq sən idin, Əsgər!

Hər gün məzar daşına üz sürtən, iki əlil, bir Qəhrəman anasının səsi Allaha çatdımı? Bir də yolun bu dünyaya düşərmi, xalqımın cəsur balası, yurdumun qeyrət qalası!

Ömrün uzunu, qısası yoxdur, mənalısı, mənasızı var.

www.kitabxana.net

Olumdan ölümə gedir insan. Olumla ölüm arasında insan ya əbədiyyət qazanır, ya da heçlik.

Əbədi həyat hər kəsə nəsib olmur. Vətən, torpaq, xalq və millət üçün doğulanlar, yurdun azadlığına qurban gedən nər oğullar yetişir bu əbədiyyətə!

Bir ocaq sönübsə, tüstüsü qalıb!

Əlində ananın istisi qalıb!

Gön neçə nəğmənin bəstəsi qalıb!

Bir qızın həsrəti, sevgisi qalıb!

Oğlu ölmüş ana gördüm qarşımda,

Göl yarandı gözlərimin yaşından.

Bir şəhidin məzarının başında,

Özüm boyda daş olmağa gedirəm.

Topxana meşəsinin harayına bütün millət yığışdı. Vaqifin məqbərəsi titrədi, Füzulidə Füzulinin misraları ağladı, Ağdam qara damlara döndü. Şuşada Xanın səsini batırdı düşmən. Kəlbəcər eybəcər düşmənə, Cəbrayıl Xudafərinsiz qaldı. Qubadlı, Zəngilan və Laçın yağmalandı. Əsrin Xocalı faciəsindən dünya utanmadı! Niyə millət yığışmadı? Yağı ayaqları altında inləyən, yaraları sızıldayan Vətənə niyə məlhəm olmadı?!

***

Əsgərdən kitab yazarkən şair dostum və qonşum Ataxan Xudazadə məndən ərklə soruşdu:

- Nə yazırsan?

- Nakam Əsgərin dastanını.

- O kimdir elə?

www.kitabxana.net

- General Həzi olmaq istəyən, heyhat, qismətinə Azərbaycanın Milli Qəhrəmanı olmaq düşən eloğlumuz – Əsgər Hacı Ələkbər oğlu Əliyevin dastanını… O, Novruz bayramı günlərində dövlət çevrilişinə cəhd zamanı özü yaralı olsa da, dörd yoldaşını od-alovun içərisindən çıxararkən şəhid olmuş qeyrət qalasıdır. Şəhidlik zirvəsində bitən qərənfildir…

- Olarmı mən də əsgəri ruhuna bir şeir həsr edim?

- Niyə olmur. Əsgər kimi qeyrətli oğullarımızın hünəri təkcə şeirə yox, cild-cild kitablara, bitib-tükənməyən el məhəbbətinə layiqdir, - dedim. – Əsgərin bir neçə şəklini də ona verib: - Yaz, qardaş, şeirini gözləyirəm…

Səhərisi gün Ataxan Xuduzadə mənə altı bənddən ibarət şeir təqdim etdi. Şeiri məmnuniyyətlə istəkli oxuculara təqdim edirəm.

Həzi kimi qəhrəman

Azərbaycanın Milli Qəhrəmanı Əsgər Hacı Ələkbər oğlu Əliyevə ithaf olunur

Ata oğul yetirdi,

Qəhrəman Həzi kimi.

Vətən oğul itirdi,

Qəhrəman Əsgər kimi.

***

Əsgərdi adı kimi,

Düşmənə çoxdu kini.

Böyüyüb ərsə çatdı,

www.kitabxana.net

Azman bir aslan kimi.

***

Kursant idi, təzə-tər

Arzuları nə qədər!..

Gələcəyin zabiti,

Qırğı tək, gözü iti.

***

Xilaskar dörd dostuna,

Kömək etdi, yaşatdı.

Qəhrəmanlıq adını

Əbədilik daşıdı.

***

«Həzi kimi genaral

olacağam!» arzusu.

Tapmadı buna macal,

Nakam qaldı arzusu.

***

Kursant idi, təzə-tər,

Arzuları nə qədər!..

Vətənini qorudu,

Milli Qəhrəman oldu,

İki tunc büstə döndü,

Şəfəqlərə büründü,

Ürəklərdə göründü…

www.kitabxana.net

Qeyrət timsalı Əsgərin məktəb həyatı, dəmir xarakteri, vətənpərvərliyi, torpaq və yurd sevgisi, parlaq zəkası, sabaha inamı, övlad məhəbbəti barədə söhbətlər bitib-tükənmək bilmir. İndi hamı üçün nağıla dönmüş qəhrəmanın arzuları və əməlləri bütün gənclərimizə örnəkdir.

Şəhid Natiq Aslanov adına Ləj kənd orta məktəbinin direktoru **Fərman Hüseynov** (red. – o dövürdə) sevimli şagirdi Əsgəri yana-yana xatırlayır:

- Biz Əsgər Əliyev kimi qəhrəman oğullarımızla fəxr edirik. O, dərs əlaçısı idi, boy-buxunu, hərb elminə, idmana marağı, xarakteri gələcəyinə böyük inam yaradırdı. Vətəni, torpağı canından artıq sevmək, qorumaq duyğusu ömrünün ən uca məqsədi idi. Bu həvəslə, məhəbbətlə də zabit olmağa, yurdumuzu göz bəbəyi kimi qorumağa qərar vermiş, Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə daxil olmuşdu. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov kimi sərkərdə

olmaq istəyirdi. Kursant olanda nümunəvi intizamı, hərbi elmin sirlərinə daha mükəmməl bələd olması ilə seçilirdi. Kəndə gələndə mütləq məktəbə, müəllimlərinə baş çəkər, gənclərə vətənpərvərlik hissləri aşılayardı. Şəhid Natiq Aslanovun guşəsi önündə dayanaraq fikrə gedərdi. Deyərdi ki, arxalı düşmən Milli Ordumuzun gücünü hiss etməlidir. Zəbt olunmuş torpaqlarımzı azad etməyincə, Xankəndində üçrəngli bayrağımızı sancmayınca bizə rahatlıq yoxdur. Əsgər tək oğullar dünyaya tək-tək gəlir. Qeyrət qılıncını sıyırıb dağ əzəməti, vüqarı ilə göstərdiyi şəxsi igidlik və şücaəti yaddaşımızda həmişəlik həkk olub.

Əsgər Əliyevin ilk müəllimi **Nəcəf Qəniyev** deyir:

- Əsgərə dörd il dərs demişəm. Ona «Ana», «Vətən» kəlmələrini öyrətmişəm. Mən bilirdim ki, gələcəyin qəhrəmanları, sərkərdələri, alimləri, əsgərləri dərs dediyim o şən, pak nəfəsli, qartal səsli, hər cür

www.kitabxana.net

piyadan, hiylədən uzaq olan şagirdlərimin arasındadır. Sərv boylu, ürəyi odlu-alovlu, dost yolunda canından keçməyə hazır olan Əsgərin ölüm xəbəri məni sarsıtsa da, ruhdan salmadı. Axı, dövlətçiliyimizin müdafiəsi uğrunda yeni bir qəhrəmanın ölməzliyə ucalması mənə tutarlı mövzu vermişdi!..

İndi mən hər dəfə qəhrəmanlarımızdan, ərənlərimizdən söhbət açanda, şagirdlərimə Aleksandr Matrosovdan və başqalarından yox, qəhrəman həmyerlimiz Əsgər Əliyev və digər igidlərimizdən danışıram. Əsgərin Lənkəranda adını daşıyan «Dostluq» parkındakı, məktəbimizdəki büstü, uyuduğu məzarı gənclərimizin qibləgahına, ziyarətgahına və and yerinə çevrilmişdir.

Əhməd Baxşıyev Əsgərin dayısı və tarix müəllimidir. Hər iki şəhidə – Əsgərə və Natiq Aslanova dərs deyib, onlar tarixi qəhrəmanlıqla dolu olan keçmişimizdən

söz açıb, adlarını tarixə qızıl hərflərlə həkk etmiş mərd oğullarımıza oxşamağı tövsiyə edib.

- Bacım oğlu Əsgər nəinki məsləhətlərimi qəbul etdi, öz dəyişməz iradəsi, mətinliyi və qorxmazlığı ilə qəhrəmanlıq zirvəsinə ucalmağın bu gün də mümkün olmasını sübut etdi. General Həzi Aslanov barədə Əsgərə tez-tez söhbət edərdim. Bir dəfə özümlə gətirdiyim kitabları və qəzetləri, Həzinin şanlı döyüş yolunu əks etdirən foto-albomu Əsgərə göstərdim. Ona dedim ki, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanov hələ gənc yaşlarında zabit olmaq fikrində idi. O, 1924-cü ildə Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinə daxil olmuş, 1931-ci ildə Leninqrad (indiki Sank-Peterburq) Süvari Məktəbini bitirmişdir. 1939-1940-cı illərdə Sovet-Fin müharibəsində iştirak etmişdir.

İkinci cahan hərbi başlananda Həzi Aslanov Ternopol vilayətində hərbi qulluqda idi, desant batalyonunda

www.kitabxana.net

komandirlik edirdi. Müharibə illərində Cənub-Qərb, Krım, Stalinqrad, Birinci Ukrayna, Üçüncü Belorusiya, Birinci Pribaltika cəbhələrində qəhrəmanlıqla vuruşmuşdur. Stalinqrad və Kursk döyüşlərində, Belorusiyanın, Pribaltikanın azad olunmasında iştirak etmişdir. Həzi Aslanovun hərbi biliyindən, sərkərdəlik məharətindən, hissəyə bacarıqla rəhbərlik etməsindən, düşmənə qarşı cəsarətindən bəhs edən 1942-ci il, 24 dekabr tarixli «Krasnaya Zvezda» qəzeti baş məqaləsində yazırdı: «Müharibələr tarixində Aslanov və onun dostları kimi mərdliklə vuruşan igidlər görünməmişdir. Düşmən tankları və piyada qoşunları nə qədər çox, güclü olsa da, onlar nə qədər tez-tez bombardman etsə də, qadir, möhkəm iradəli bir komandir olan Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun başçılıq etdiyi hissənin mövqeyinə keçə bilməz».

«Pravda» qəzeti dekabrın 27-də baş məqaləsini H.Aslanovun tankçılarına həsr etmiş, onun cəsur

sərkərdə olmasını, mərdlik və igidlik nümunəsini xüsusilə qeyd etmişdir.

«Sın oteçestva» qəzeti (1943-cü il, 13 yanvar) bir nömrəsini fəxrlə Həzi Aslanovun əsgəri igidliyinə həsr etmişdir. Qəzet yazırdı ki, tankların əməliyyatını piyada qoşunların və artilleriyanın əməliyyatı ilə necə əlaqələndirməyi qvardiya polkovniki Aslanovun hissəsindən öyrənmək lazımdır. Qoy Sovet İttifaqı Qəhrəmanı Aslanovun tankçılarının döyüş fəaliyyəti bütün bölmələrimiz üçün nümunə olsun…

Qəhrəman Həzinin odlu illərdə dərc olunmuş «Meşəlik-bataqlıq ərazidə təqib zamanı tank briqasının manevri», «Almanlara cinahdan zərbə endirmək döyüşdə əsas qaydamdır», «Cinahdan zərbə», «Qəti qələbə günümüz yaxınlaşır» və digər məqalələrində düşmənə nifrət, Vətənə məhəbbət, qələbəyə inam hissləri olduqca güclüdür.

Həzi Aslanovun göstərdiyi igidlik və mərdlik nümunəsi hər bir azərbaycanlı üçün əsil örnəkdir. Çox

www.kitabxana.net

sevinirəm ki, Həzi qeyrətli, Həzi ürəkli bacım oğlu Əsgərin qəhrəman olmasında mənim az da olsa zəhmətim olubdur. O, Həzi kimi döyüşüb general ola bilməsə də, öz ölümü öldürən fədai, canından keçməyi bacaran Milli Qəhrəman oldu. Belə oğullar yetirən xalq heç vaxt məğlub ola bilməz…

Məktəbdə birinci sinifdə bir yerdə oxuyan **Eldəniz Qasımov** Əsgərsiz keçən günlərdə həmişə onu xatırlayır, onunla fəxr edir:

- Əsgər məndən üç gün qabaq oxumağa getdi, mən isə Milli Ordu sıralarına. Mən onunla dost və sirdaş idim. Arzularımız böyük idi. Yeri görünən dostumun sapı özümüzdən olan baltalar tərəfindən şəhid olması xəbəri ürəyimi ağrıtdı. Öz mərdanə ölümü ilə ölümsüzlüyə qovuşmuş Əsgər qəhrəman əsgər tək xatirələrdə, yaddaşlarda qalacaq. Ölməzlik həmişə şəhidlərimizlədir. Onlar ana torpağın altında bizə həyat bəxş edən dirilərdir. Bu ölümsüzlük də onu

göstərir ki, Azərbaycan xalqı yaşayır və dünya durduqca yaşayacaqdır. Azərbaycanın bayrağı daim dalğalanacaq, səsi BMT-dən əskilməyəcəkdir.

Ləj kəndinin ağsaqqalı **Şirinəli Eyvazov** Əsgəri xatırlayanda göz yaşlarını saxlaya bilmədi:

- Əsgər balamızı Allah rəhmət eləsin, mənzili behişt olsun, - deyə söhbətinə davam etdi. – Dərd gələndə batmanla gəlir, oğul. İyirmi yanvarda Xocalı faciəsində, Qarabağ torpağında qan verən cəng meydanlarında neçə-neçə çinar boylu Vətən oğullarımız şəhid oldu. Sağ qalsaydılar oğul-uşaq, ev-eşik sahibi idilər. Daxili xəyanətkarların doğmalarına güllə atıb al-qana boyamasına dözmək olmur. Qanına qəltan edilmiş oğullarımız ciyərparələrimiz deyilmi? Əsgərin vaxtsız ölümü qəlbimizdə möhkəm yer elədi. Salam-kalamlı, ədəb-ərkanlı, böyük-kiçik yeri bilən idi. Yaşından xeyli qabağa gedərək döyüş meydanında əsil kişi cəsarəti ilə nəyə qadir olduğunu göstərdi.

www.kitabxana.net

Ləj kənd orta məktəbi şəhid Natiq Aslanovun adını daşıyır. Məktəbdə şəhidə həsr edilmiş guşə diqqəti cəlb edir. Natiq say-seçmə oğullarımızdan idi. Daxili qoşun hissəsində xidmət edirdi. Düşmənə qarşı döyüşlərin ən çətin məqamında dəfələrlə hünər göstərmişdi. O, qorxu nə olduğunu bilmirdi. Yağı oun sarsıdıcı güllə zərbələrindən canını qurtara bilmirdi. Şiddətli atışmaların birində hündürdə mövqe tutmuş düşmənlərin atdığı mərmi qəlpəsi ani zərbə ilə Natiqin ürəyindən dəyir, o, işıqlı həyatla vidalaşır. 1993-cü ilin avqust ayında Natiq Aslanovun şəhid olması xəbərini atası Kərbəlayı Şirinəli kişiyə çatdırırlar. Şam yeməyi ailənin süfrəsində donub qalır.

Şirinəli kişi deyir ki, Əsgərin xətrini oğlum Natiq qədər istəyirdim. Çi fayda ki, amansız fələk hər iki tifilə qıydı. Onlar bizim nəzərimizdə uşaq olsalar da böyük şücaətlər göstəriblər. Yana-yana, qovrula-qovrula xatırlayırıq, yad edirik onları. Ancaq bir məsələ var ki, ağlayıb sızıldamaqdansa qəddimizi şux

tutmalıyıq. Çünki şəhidlərin əməlləri, hünəri yaşadır onları…

***

Od salaq düşmən canına,

Yağı boyansın qanına.

Şəhidliyin salamına,

Gəlməyin vaxtıdı, qardaş.

- Qardaşım Əsgər sanki uzaq bir səfərə gedib, qayıtmaq bilmir ki, bilmir. Öz əbədi axirət evinə tələsməmişdi, onu tələsdirdilər, işıqlı ömrünə bədxahlar son qoydular, - deyən **bacısı Gövhəri** qınamaq mümkün deyil.

www.kitabxana.net

– Qardaş yoxluğu, qardaş itkisi bizi ömürlük tərk etməyəcək. Əsgərin Vətən və dövlət naminə əsirgəmədiyi şəhid ruhu döyüş himni ilə birlikdə ruhumuza qovuşur. Vətənin harayına yetişən igid qardaşım Vətən uğrunda Səməndər quşu tək alışıb-yandı, məni göyüm-göyüm göynətdi. Bilmirəm, hansı namərd qardaşımı al-qanına boyadı. Ancaq onu bilirəm ki, qardaşımın qatilləri cəzadan kənarda qalmayıblar. Şeyx Sədi Şirazi necə də gözəl demişdir:

İncitsən bir qəlbi arxayın olma,

Ki sənin öz qəlbin asudə qalar.

Hasarın bürcünə daş atsan bil ki,

Bir daş da hasardan sənə atılar.

Hər dəfə Lənkəranda qardaşım Əsgərin adını daşıyan parkda onun tunc büstü önünə şəhidliyimizdən,

üçrəngli bayrağımızdan xəbər verən al qərənfillər qoyub fəxarət duyuruq. Sızıldayan qəlbimi, iniltilərimi bir qədər sakitləşdirən odur ki, mən Milli Qəhrəman bacısıyam. Yurdumuzda bu qan-qada cəngiməsə ah-naləm dağı-daşı yandırar…

Əsgəri tez-tez yuxuda görən, əli əlinə çatmayan **Nazir Əliyev** qardaşının yoxluğunu ürəiyndə düyünə döndərib:

- Qartal baxışlı, sərv qamətli, taleyi daşa dəyən qardaşımı çox istəyirdim. Torpaqlarımıza güllə yağışı səpələnən anlarda mən və qardaşım Zaid odlu nöqtələrdə düşmənin başına od ələyirdik. Zaidin dizində ağır cərrahiyyə əməliyyatı aparıldıqdan sonra 16 gün ölümlə çarpışdı. Şükürlər olsun ki, böyük Yaradana o, bu işıqlı həyata əlvida demədi. Qardaşım özgə bir qardaş, sirdaş idi. Yurd savaşına qoşulub düşmənin dərsini vermək, ərənlərimizə qol-qanad verərək dəli nərəsi çəkmək istəyirdi. Bakının

www.kitabxana.net

içərisində xain gülləsindən şəhid olacağını ağlına da gətirməzdi…

Toydan söhbət düşəndə deyirdi Əsgər: - Mən oxuyacağam. Böyük qardaşlarım da qalıb. Vətən azad olsun, sonra evlənərəm. Qardaşlarım özlərinə ev tiksinlər, ata evi, həyəti mənimdir. Bacım Gövhərə deyərdi ki, sən oxu, elm böyük sərvətdir.

Qardaşım idmançı idi. Musiqiyə böyük marağı vardı. Məktəbin «Qartal balası» komandasında həmişə seçilərdi. Gənc hərbçilərin respublika yarışlarından bir neçə dəfə fəxri fərmanla qayıtmışdı.

Ev işlərini görməkdə həmişə atama kömək edərdi Əsgər. Yay tətili dövründə gözətçi işləyirdi. Ali hərbi məktəbə daxil olan ili həyətdə narıngi, feyxoa ağacları əkmiş, «məndən yadigar qalsın» demişdi. İndi həmin ağaclar böyüyüb məhsul verir. Əkdiyi gül kolları əllərinin nişanəsidir. Hərdən bağçamızda ötən quşların səsini eşidirəm, mənə elə gəlir ki, bülbüllər də nakam qardaşımdan soraq verir…

Xatirələrin işığında

Şəhidlik zirvəsini fəth etmiş qəhrəman

Əsgər Əliyev yaddaşlarda

Parlaq ulduz kimi

Cənub mirvarisi Lənkəranın tanınmış ziyalısı, Lənkəran şəhər icra hakimiyyətinin başçısı, yazıçı Yaşar Rzayev (***red. – o dövrdə***) Qarabağ dərdlərindən söhbətlər edərkən, kövrəlsə də, şəhidlərimizin qəhrəmanlığından həmişə fərəhlə danışır. Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevə həsr etdiyim kitabı çapa hazırlayan ərəfədə Yaşar müəllim dedi:

www.kitabxana.net

- Mənim ürək sözlərimi də qələmə almağı unutma. Müharibənin sənədli ədəbiyyatı yaranarkən hər şey doğru-dürüst, olduğu kimi qeyd olunub xalqa, gələcək nəsillərə çatdırılmalıdır.

- Siz Əsgər barədə nə deyərdiniz? – soruşdum.

Yaşar müəllim əlindəki qələmi kağızın üzərinə qoyaraq dedi:

- 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri və Azərbaycanın ictimai-siyasi vəziyyətinə həsr olunmuş ümumxalq nümayəndələr toplantısındakı (5-6 aprel, 1996-cı il) hər bir məruzəyə, çıxışa diqqətlə qulaq asdım. Toplantıda dövlət çevrilişi cəhdlərinin aradan qaldırılması üçün görülmüş tədbirlər ətraflı təhlil edildi, dövlətçiliyimizin qorunub saxlanması, milli həmrəyliyin, sabitliyin, əmin-amanlığın zəfər çalması üçün yollar göstərildi. Qeyri-konstitusion yolla hakimiyyətə gəlmək məqsədi güdənlərin xəyanətkar əməllərinə hüquqi-siyasi qiymət verildi. Möhtərəm Prezident Heydər Əliyevin yekun nitqində

dövlətçiliyin, daxili sabitliyin, vətəndaş həmrəylinin daim qorunub saxlanmasının zəruriliyini qeyd etdi. Mart dövlət çevrilişinə cəhd zamanı dəhşətli atışmada şəhid olmuş eloğlumuz, kursant Əsgər Əliyevin atası Ələkbər Əliyevin çıxışı məni kövrəltdi, gözlərim yaşardı, fərəhimi də gizlədə bilmədim. Onun iki oğlu Qarabağda döyüşüb, güllə yarası alıb. Bir oğlu isə qəhrəmancasına şəhid olub. Əsgər Əliyev Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bax, budur Əsgər Əliyevin övladlarımıza verdiyi əsil kişi və qəhrəmanlıq tərbiyəsi, əxlaqı!

Qəhrəman Əsgər Əliyev öz şəxsi hünəri və şücaəti ilə göstərdi ki, əvəzsiz sərkərdələr – Şah İsmayıl Xətai, general Səməd bəy Sadıq bəy oğlu Mehmandarov, tank qoşunları qvardiya generalı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, əfsanəvi snayper Baloğlan Abbasov kimi qəhrəmanlar indi də yetişir, Vətən, yurd yolunda canını əsirgəmir, öz adlarını tarixin pozulmaz yaddaşına həkk edirlər. Əsgər

www.kitabxana.net

Əliyevin və 23 yaşlı qəhrəman Rövşən Abdullayevin tunc büstləri Lənkəran şəhərinin ən görümlü və yaraşıqlı yerlərində qoyulubdur. İgid şahinlərimiz cavan olsalar da zirvələrə ucaldılar, babalarımızın döyüş, yenilməzlik, vətənpərvərlik ənənələrini yaşatdılar. Belə qəhrəman oğullarımız haqqında sənədli filmlər çəkilməli, kitablar yazılmalı, adları əbədiləşdirilməli, onların keçdiyi döyüş yolu məktəbli gənclərə nümunə göstərilməli, öyrənilməlidir. Hər il məktəblərimizdə Azərbaycanın Milli Qəhrəmanlarına həsr edilmiş qəhrəmanlıq dərsləri tədris edilməlidir.

Müstəqillik bayrağımızı uca zirvələrə ucaltmış Əsgər Əliyev kimi qəhrəmanlarımız aydın və buludsuz səmada ulduz kimi parlayırlar. Arzu edərdim ki, bu parlaq ulduzun şöləsi hər bir gəncin vətəndaşlığa uzanan yoluna işıq saçsın, üçrəngli bayrağımız bu müqəddəs nurun işığında daha əzəmətlə ucalsın və dalğalansın.

Fədakarlıq qeyrətdən doğur

Lənkəran şəhər icra hakimiyyətinin ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin müdiri Əlimərdan Əliyevlə tez-tez görüşürük. Kitab üçün Əsgər Əliyev barədə bir-iki yarpaq söz deməsini xahiş etdim. O dedi:

- 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri və Azərbaycanda ictimai-siyasi vəziyyətə həsr olunmuş ümumxalq nümayəndələri toplantısı Azərbaycan dövlətini ağır sınaqlar qarşısında qoymuş çevriliş cəhdlərinə, qeyri-konstitusion yolla hakimiyyətə gəlmək məqsədi güdənlərin xəyanətkar əməllərinə hüquqi-siyasi qiymət verdi. Ölkənin ictimai-siyasi həyatında baş vermiş mühüm proseslər ətraflı təhlil edildi, dövlətçiliyin qorunub saxlanması, milli həmrəyliyin, sabitliyin, əmin-amanlığın zəfər çalması bizi sevindirdi.

www.kitabxana.net

Silahlı çevrilişə cəhd zamanı atışmada şəhid olmuş Əsgər Əliyevin atası Hacı Ələkbər həmin toplantıda çıxış etdi. O, Prezidentə müraciət edib dedi ki, xalq və qəhrəman silahlı qüvvələrimiz Sizin bir çağırışınızla ayağa qalxaraq sübut etdilər ki, ölkəmizdə qanuni dövlət hakimiyyətini çevirmək mümkün deyildir. Doğrudan da belədir.

Çox təəssüfləndirici olsa da atışma zamanı neçə-neçə cavan əsgər və zabit günahsız olaraq həyatla vidalaşdı. Onlar Vətəni qoruyacaqdılar, ailə quracaqdılar, elə arxa, ata-anaya həyan olacaqdılar. Vətən və millət, torpaq təəssübü çəkəcəkdilər…

Mən dəfələrlə şəhid ailələrində olmuşam. Ata-anaların ürək ağrıdan söhbətlərini dinləmişəm. Mənim də ürəim onlarla bir yerdə sızıldayıb, kədərlənmişəm. Şəhidlik igidlərin yüksəldiyi ali məqam olsa da, kiminsə amansız güllənin qurbanı olmasını istəməzdim.

Qarabağ torpaqları uğrunda 170 nəfər lənkəranlı canını əsirgəməyib, şəhid olub. Biz çalışırıq ki, şəhidlər unudulmasınlar, xatirələri daim əziz tutulsun, adları əbədiləşdirilsin. Qəhrəran Əsgər Əliyevin büstü oxuduğu məktəbdə və Lənkəranın mərkəzində onun adını daşıyan parkda ucalır. İndi yeniyetmə gənclər qəhrəman Həzi Aslanovu yaxşı tanıdıqları kimi, ölümdən qorxmayan, canını fəda etməyi bacaran, həyatla çox erkən vidalaşıb qəhrəmanlıq zirvəsinə ucalan Əsgər Əliyevin hünəri qarşısında da ehtiramla baş əyir, ondan əyilməzlik, qeyrət və rəşadət öyrənirlər.

www.kitabxana.net

Ömrün davamı

Əlisəfa Həsənov, yazıçı-jurnalist

Şəhidlik libası geyən oğullar,

Sönməz bir ulduza dönər səmada.

Ölümdən sonra da yaşamaq olar,

Sağlıqda ömrünü verməsən bada!

Misralardakı fikrin sərrastlığına və və deyimin səmimiliyinə söz yoxdur. Doğrudan da gəlimli, gedimli dünyada ölümdən sonra da həyat var. Həyatda əsil insan və şəxsiyyət kimi yaşayıb ömür sürənlər, özündən sonra iz saxlamağı bacaranlar, aslan ürəkdi, pələng biləkli igidlərimizə əbədi olaraq xatırlanmaq, şöhrət zirvəsində qərar tutmaq xas olan

keyfiyyətlərdir. Torpağın Vətən olması, onun qarı düşmən caynağından qurtulması, elin-obanın, ölkənin qeyrətini çəkən Əsgər Əliyev kimi qorxmaz şahinlərdən asılıdır.

Müqəddəs torpağa qovuşan eloğlumuz Əsgər Əliyev bizi çox tez tərk etsə də, adı gündən-günə şöhrətlənir, dillərdə əzbər olur. Allah onu çox istədiyindən öz hüzuruna apardı, bununla da ömrünün torpaq qədər əzəli və əbədi davamı başlandı. O, göstərdi ki, milləti, xalqı, torpağı dərin məhəbbətlə sevmək, alovlu vətənpərvər olduğunu sözdə yox, əməldə sübut etmək olar. Əsgər sınaqlardan üzüağ çıxdı. Gənc həmyaşıdlarına, kursant yoldaşlarına göstərdi ki, qeyrət və layaqət, cəsarət və düşmənə nifrət olarsa xalqın gözündə ucalmaq mümkündür. Həyatla vidalaşmış insanın ölüm günü o unudulanda, arzu və ümidləri puça çıxanda başlanır. İdeyaları, əməlləri özündən sonra yaşayırsa, deməli, onun ömrünün davamı ölümündən sonra başlanır.

www.kitabxana.net

…Gəlimli, gedimli, son ucu ölümlü dünyada hamımız qonağıq. Ana torpağın daşına, qayasına baş qoyub əbədiyyətə qovuşanlar ən mötəbər, ən əziz bəndələrdir. Allah qəhrəman Əsgəri, şəhid əsgəri, nakam qardaşı rəhmət eləsin, günəşin al şəfəqləri ruhuna, baş daşına sığal çəksin, buludlar göz yaşı töksün, səba yellərisə xoş müjdələrdən xəbər gətirsin…

Fəxr etməyə dəyər

Babək Xürrəminin vaxtilə məskən saldığı Bəlləbur qalasının daş yaddaşı ötən yüzilliklərdən xəbər verir. Qalanın mübarizə tarixindən böyük şövqlə danışan mədəniyyət işçisi, mahir gitaraçı, dəyərli ziyalı Balamir Yəhyayev (onun evi bu azman qalanın lap yaxınlığındadır) Azərbaycanın Milli Qəhrəmanı, kursant Əsgər Əliyevdən söz düşəndə onun üz-gözünə qəm-kədər çökür, xəyalları sanki onu ruhların sehrli aləminə aparıb çıxarır:

- Hər dəfə şəhidlərimizlə vidalaşarkən «son şəhidimiz olsun» - deyirik. Heyf ki, arzumuz çin olmur. Atəşkəs olsa da ara-sıra düşmən gülləsindən şəhid oğullarımızı torpaqla qovuşdurmaq üçün tabutda gətirirlər. Onlar öz elində-obasında, doğma torpağın ağuşunda əbədi məskən salırlar. Bundan təskinlik, toxtaqlıq tapmaq

www.kitabxana.net

olar. Lakin qardaşın qardaşa düşmən kəsilib güllə atmasına, sapı özümüzdən olan baltaların özümüzü doğramasına, xəncərimizin öz kürəyimizi teyləməsinə nə dözmək olur, nə də haqq qazandırmaq. Fikirləşib öz-özümə suallar verirəm: görəsən Vətəni qorumaq üçün zabit olmaq istəyən, ürəyi pak arzularla döyünən eloğlumuz Əsgər Əliyevin günahı nə idi? Nə üçün ona güllə atan barmaqlar qurumadı? Atası Hacı Ələkbər kişiyə, Firayə anasına, bacı və qardaşlarına, qohumlarına necə təskinlik verəsən ki, toxtaqlıq tapsınlar?

Suallar çox və cavablar çətin olsa da istər-istəməz həyatın reallıqları ilə barışmalı oluruq… Ancaq nahaq qan tökməyə rəvac verənlərə haqq qazandıra bilmərəm. Düşmənə atılmalı olan güllələrin Əsgərin kökçünə sancılıb onun cavan ömrünə son qoyması məhz əsrin faciəsi, nadanlığın nəticəsidir, vəzifə və hakimiyyət hərislərinin qeyri-insani hərəkətləridir. Bəşəriyyətin yolu Xeyirin Şər üzərində qələbəsinə

doğrudur. Bizə sülh və əmin-amanlıq lazımdır, qan-qada, acı göz yaşı yox!

…Hər dəfə Lənkəran şəhərinə gedərkən adını daşıyan parkda abidəsi ucalan qəhrəman Əsgər Əliyevin büstü önünə qırmızı qərənfillər, çiçək dəstələri düzməyi özümə borc bilirəm. Düşünürəm ki, torpağın al rəngi, qəhrəmanlıq və rəşadət rəmzi Əsgərin görüşünə, onun ruhunu şad etməyə gəlibdir.

Əsgər Əliyev kimi qeyrətli, cəsarətli, əyilməz və bükülməz igidlərimiz, ər oğullarımız Vətənimizin qeyrət və rəşadət simvoludur. Belə oğullarımızla fəxr etməyə dəyər.

www.kitabxana.net

Həqiqətə çağırış

Məmmədəli Məmmədov,

Lerik telekommunikasiya qovşağının rəisi,

ordenli fəxri rabitəçi

- Yazıçı-jurnalist dostum İdris Şükürlü ilə tez-tez görüşürəm. Sosial qayğılardan tutmuş nəhəng problemlərədək – hər şeydən söhbət edirik. Bu dəfə özü ilə gətirdiyi qalın kağız qovluğu diqqətimi cəlb etdi. Zarafatla soruşdum:

- Deyəsən roman yazmısan. Bilmək olarmı qovluğundakı nədir?

- Ay Məşədi, - dedi, roman deyil, ancaq roman mözusudur. O gün «Dədə Qorqud» filmi göstərilirdi. Qazan xan dedi: «Bu gün öz qılıncımız öz başımıza

enəcək». Mart hadisələri zamanı da neçə-neçə günahsız cavan əsgər güllənin qurbanı oldu. Dövlət çevrilişinə cəhd göstərib silaha əl atanlar gərək bu yolu tutmayaydılar. Qovluqdakı Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyev barədə kitabın əlyazmasıdır. Yaxın vaxtlarda işıq üzü görəcək. Əsgər mart hadisələrində şəhid olub.

Mən İdris Şükürlünün müharibə və şəhidlik mövzusunda yazdıqlarını mətbuatda oxumuşam. O, televiziya verilişlərində də bu mövzuda öz sözünü deyib, radioda da. Son illərdə onun qələmə aldığı ədəbi-bədii, publisistik əsərlərin əsas ana xəttini müharibə mövzusu təşkil edir. Yazılarında aydın üslub, sərrast deyim, yığcamlıq, Vətənə məhəbbət, düşmənə nifrət, haqqa-ədalətə, ümumbəşəri dəyərlərə çağırış xüsusi olaraq diqqəti cəlb edir. Lerikin şəhid oğulları haqqında «Ölsəm, inanma» kitabını yazmış, nəşrin ikinci hissəsini də çapa hazırlamışdır.

www.kitabxana.net

Mən Əsgər Əliyevi şəxsən tanımırdım. Lakin onun qəhrəmanlığı barədə eşitmişdim. Bu kitabın əlyazmasını oxuduqdan sonra Azərbaycanın Milli Qəhrəmanı Əsgər Hacı Ələkbər oğlu Əliyevin həyatı və hərb sənətinə sonsuz marağı, genaral olmaq arzusu, qorxmazlığı və cəsarəti, mərdliyi ilə yaxından tanış oldum. Dövlətçiliyimizə qarşı yönəldilmiş qəsdin aradan qaldırılmasında göstərdiyi igidlik gənc əsgərlərimizə yaxşı bir örnəkdir. Əsgər Əliyev kimi qəhrəmanların xatirəsini həmişə uca tutmalı, adlarını əbədiləşdirməli, ruhunu yad etməliyik.

«Ömür çırağı sönmədi» kitabının oxucu rəğbəti qazanacağına inanıram.

Tarixi yaşadan həqiqət

Şəhidlərimizdən həmişə ürək ağrısı ilə söz açan həkim dostum Etibar Vəliyev Əsgərin ölüm xəbərini eşidib bərk sarsılmışdı. Sanki əziz adamını itirmişdi. O, xahiş edib bildirdi ki, bu bir-iki yarpaq sözümü Hacı Ələkbər kişi başsağlığı kimi qəbul etsin.

Çoxunun yanından ötüb keçən kədər qəhrəmanın atası Hacı Ələkbərin ürəyinin başından keçdi. Şəhid oğulların ölümünü həmişə qəmlə, kədərlə qarşılayan ata bayram günü oğul dağı gördü. Lakin ölüm xəbəri onun dağlı qürurunu sındıra, qəddini əyə bilmədi. Bu dağı düşmən vursaydı, dözməyə nə vardı ki?

Qarabağın bərəkətli torpaqları üçün yerikləyən düşməndən qorxmayaraq sinəsini güllə qabağına verən mərd oğullara, qəhrəmanlara, oddan-alovdan

www.kitabxana.net

keçən qardaşlarına oxşamaq istəyirdi Əsgər Əliyev. O, haradan biləydi ki, dövlətçiliyimizi qoruyarkən sapı özümüzdən olan namərdin atdığı güllə çinar boylu Vətən oğlunun ömrünü sona çatdıracaq!

Suverenliyimizə atılan güllələri öz bədənində dəfn etmiş igidlər əsil qəhrəmanlardır. Belə qəhrəmanların həyatı ömrünü yel kimi bada verənlərin min ömrünə dəyər. Bu ömür yolu qısa olsa da, Əsgər onu mərdliklə yaşadı, kişi kimi başa vurdu, parlaq, işıqlı bir həyat sürdü. Bənzərsiz bir həyat. Tarixi yaşadan həqiqət!

Əsgər Əliyevin büstü qədim Lənkəranın mərkəzində – onun adını daşıyan parkda – ağacların əhatəsində ucalır. Büstün önündə tər çiçəklər əskik olmur. Onun da ömrü gül ömrünə bənzədi.

İnsanlar ömrün xoş anlarında, şad günlərdə bir-birinə gül bağışlayırlar: paklıq, əmin-amanlıq, xoşbəxtlik arzulayırlar.

Sən də gül ömrü yaşadın. Belə ömür yaşamağa dəyər…

www.kitabxana.net

İmam Hüseyn (Ə) müsibəti

Lerik məscidinin axundu Məşədi Naib Nurxan oğlu gənc olduğu üçün lerikli gənclərin – Vətən fədailərinin Qarabağ savaşında, müstəqillik uğrunda göstərdikləri qəhrəmanlıqdan fərəhlə söz açır, onların ruhuna dua oxuyur.

- Mənim qənaətimə görə hər bir gənc, başıpapaqlı öz Vətənini sevməli və qorumalıdır. Çünki Vətənə ana Vətən və ana torpaq deyirik. Torpaq ona görə bizə əzizdir ki, biz üstündə gəzdiyimiz torpaqdan yaranmışıq, torpağa da qovuşacağıq. Dünənimiz və bugünümüz, ulularımız və gəncliyimizdən ötrü, müqəddəs torpaqdan ötrü heç nə əsirgəmək olmaz.

Şəhidlik Allah təbarək və təalənin yanında uca zirvədə olmaqdır. Hətta islamın mübarizələrlə zəngin olan tarixinə nəzər saldıqda görürük ki, Kərbəla şəhidləri həm din, həm də əqidə yolunda misilsiz fədakarlıq,

qəhrəmanlıq göstəriblər. İslamın bayrağını həmişə uca tutmuş din fədaisi, azadlıq mübarizi, qəhrəmanlar qəhrəmanı İmam Hüseynin (Ə) din və əqidə qardaşları, tərəfdarları bilirdilər ki, şəhid olacaqlar. Lakin onlar düşmən üzərinə qorxmadan, cəsarətlə getmiş, şərəfli ölümü hər şeydən uca tutmuşlar. Onlar şəhid olsalar da on dörd əsrdən artıqdır ki, Kərbəla müsibəti, İmam Hüseynin misilsiz şücaəti, fədakarlığı unudulmur, dillərdən düşmür. Əksinə, getdikcə yeni məna və dəyər kəsb edir. Kərbəla qəhrəmanları hər bir müsəlmana, Azərbaycan əsgərinə, Vətənini hədsiz sevən, onu qorumağı bacaran hər bir kəsə əsl örnəkdir. Bu mənada Azərbaycanın Milli Qəhrəmanı, şəhid eloğlumuz Əsgər Əliyevin xatirəsi unudulmazdır. Biz onu həmişə yad etməli, qəlbimizdə, əməlimizdə yaşatmalı, əziz ruhuna rəhmət diləməliyik.

www.kitabxana.net

İnşallah Əsgər Əliyev kimi Vətən fədailəri torpaqları işğaldan azad edəcək, ürəklərdən və könüllərdən dərd, kədər, ələm və sitəm silinib yox olacaqdır.

«Halal olsun»

Bir neçə orijinal şeirin və poemanın müəllifi, şair Nəbiəli Baltaçıoğlu bibisi nəvəsi Əsgər Əliyevin vaxtsız şəhid olmasına heç cür inana bilmirdi. İnana bilmirdi ki, dağ cüssəli igid, ürəyi köksünə sığmayan, addımından yer titrəyən Əsgər artıq həyatda yoxdur.

- Uşaqlıq illərində onu necə tanımışdımsa, eləcə də yaddaşımda qalıb. Dəcəl və şən uşaqlar «döyüş meydanı»nda şücaət göstərirdilər, qəhrəman olurdular. Kənd birinci şəhidi Natiq Aslanovu ağuşuna almışdı. Əsgər isə… əsgər kimi şəhid olub əbədiyyətə qovuşmuşdu. Heç kəs bilmirdi ki, ona Milli Qəhrəman adı verilib. Mən deyəndə ki, Azərbaycanın müstəqilliyi uğrunda qurban getmiş Əsgər Azərbaycanın Milli Qəhrəmanı adına layiq

www.kitabxana.net

görülüb, hamı dedi: «Əsgər bu fəxri ada layiqdir. Halal olsun. O, el-obanın başını ucaltdı».

Dəfn günü Ləj kəndinin cavanları Əsgərin tabutunu çiyinlərində yox, əllərinin üstündə aparırdılar. Sanki müqəddəs, əlçatmaz bir mələyi, sülh rəmzi göyərçini başlarının üstünə qaldırmışdılar. Sanki Əsgərin müqəddəs ruhu uçub Vətənin ənginliklərinə qalxacaqdı…

…Hamı bayram süfrəsi bəzədi. Lakin mənim bibim nəvəsi Əsgərin şəhid olması hər şeyi yasa döndərdi. Bircə əlacım ona qaldı ki, atası Ələkbərə və bibim qızı Firayəyə ürək-dirək vermək. Məgər ürək-dirək vermək ölümə çarədirmi?

Dağ yaddaşı, məhək daşı

Poemanın proloqu

Ay İdris, sənlə yoldaş olandan,

Haqdan, həqiqətdən danışdı qələm.

Duyduqca qəlbinin hərarətini,

Kükrəyib sular tək hey daşdı qələm.

Duymusan əzəldən sözün sehrini,

Qəlbin haqq sözünə salıb mehrini.

Hər kəs tuta bilməz onun yerini,

Ömrünə-gününə sirdaşdı qələm.

www.kitabxana.net

Səpdin varaqlara hey alın təri,

Sözlərin ömrünə açdın səhəri,

Sənin nəfəsini düyandan bəri,

Həqiqət yolunda savaşdı qələm.

Kövrək sətirlərin göz yaşını sil,

Sözlər çiçəklənsin qoy fəsil-fəsil.

Həyatda qardaşın olmasa da, bil,

Sənin taleyinə qardaşdı qələm.

Zaman çiçək-çiçək açıb dilində,

Yazıb yaradırsan doğma elində.

Deyirəm, a qardaş, sənin əlində,

Namərdə tuşlanan bir daşdı qələm.

Dönüb bir vəfalı könül yarına,

Dözür zamanların şaxta, qarına.

Bu qoca dünyanın olaylarına,

Bir qayım, əbədi yaddaşdı qələm.

Balayar Sadiq

www.kitabxana.net

Müəllifin vida sözü

İnam bayrağımız

Bir də enməsin!

Xəyalən də olsa, məmləkətin ətrafında

at cövlan etdirməlisən.

Şah İsmayıl Xətai

Sən bir azəri əsgəri, yurda sipər, dağ idin.

Sən genaral olmalıykən, dönüb qəhrəman oldun.

Babək, Xətai qeyrəti qan əvəzi damarında axırdı.

Sən daim haqq yolundaydın, zəfər biçilmişdi boyuna. Axı, kim qıydı sənə, nə deyəsən bu mərkli oyuna?!

Düşmən diz çökməliydi sənin qarşında. Qardaş, bu nə sitəm, bu nə ələm cavan yaşında?!

Biz gəlmişik bu dünyadan qonaq kimi gedənik. Sənsə qalansan, qalan. Sən həqiqət simvolusan, düşmən isə xar, yalan. Tarixdən bac alansan, daim xatırlanansan.

Oyan, oyan, ayağa qalx, Günəşə bax! Ürəyimi atəşlərə yaxan Vətən! Azad Vətən, əsir Vətən!

«Şəhid ruhu başın üstə, olacaqdır qalxan, Vətən!»

«Vətən ağrısı»nı yazdıqca şair, xəyalım uzanır asimanlara, sonra yurd içinə, sönməyən ocaqlara.

Ruhum tək duyuram ana torpağı,

Yurdumun daşı da sanki çiçəkdir.

Qəlbimdə ucalan inam bayrağı,

Bilirəm heç zaman enməyəcəkdir.

www.kitabxana.net

Şəhid ruhun hesabatı

Sinəsində qeyrət selləri çağlardı. Vüqarlı alnı həmişə açıq idi, başını da vüqarla dik tutardı – uca dağlar tək!

Babalarımızın əsrdən-əsrə adlayan, yüzilliklərdən boy göstərən mərdliyi, kişiliyi, şücaəti, cəsarəti, ləyaqəti qarşısında baş əyərdi.

Tarixin zaman-zaman durulan həqiqətlərinə biganə qalmazdı. Tarixin qatı açıldı, səbrimin qaşı çatıldı, Əsgər döyüşə atıldı!

Şair misraları and kimi səsləndi qulaqlarında.

Can qurban etməyin vaxtı çatıbsa,

Səndən hansı namərd əsirgəyər can.

Qoyaram başımı ayaqlarına,

Ey ana, torpağım, ey Azərbaycan!

Təbəssümün dondü gülər üzündə. Sən necə sığındın o lal məzara?! Gör necə həsrət qaldın şəhidlərin göyərən məzarına!

Palıd qaməti əyildi – yerdən güc almaq üçün. Torpağa səcdə qalıb «Bağışla, Vətən, səni qorumağa ömrüm çatmadı» deyib halallıq almaq üçün!

Kədər ürəyini daş-qalaq etdi. Ruhu bizimlədi, cismidi getdi!

Sən getdin, sən uçdun asimanlara. Göylərdən boylandın əsir torpaqlara, uca dağlara.

Ruhundu dolaşan məmləkətin başı üstə.

Vətən oğlu, torpaqları azad elə, sevincdən göz yaşı istə…

www.kitabxana.net

Vətənə xitabən

- Oğlum Əsgər Vətənin əsgəri idi, orden-medal almaq keçmirdi ürəyindən, - deyir Hacı Ələkbər kişi. – O, vətəndaşlıq borcunu yerinə yetirməkçün əsgər libası geymişdi. Arzum budur atalar bir də başın əyməsin. Təki bu Vətənə güllə dəyməsin…

Oyan, sərkərdə babam!

Səfərbər et əsgərini, səflərə düzdür hərbini, düşmənə göstər zərbini!

Yağı dadsın qılıncının ağusunu və zəhrini! Qələbə bizimlə olsun, düşmən çəksin öz qəhrini!

Hacı Ələkbər hərdən dolabı açıb Əsgərdən yadigar qalmış Milli Qəhrəman ordeninə əlini toxundurub təsəlli tapmaq istəyir. Eh, nə deyəsən…

Bu dərd gəlibsə qapıya

Qonağım olmağa gəlib

- yazmışdı mərhum şair dostum Allahverdi Məmmədli.

Şərəfli bir ömrün silinməz qismətini, dəyərli payını yaşadı Əsgər. Dahi Hüseyn Cavidin bu misraları yada düşür:

Ölüm var ki, həyat qədər dəyərli,

Həyat var ki, ölümdən də zəhərli.

Heyhat ömrün qısa oldu, ölüm adlı kədərin yol yoldaşı oldu, Vətənin qeyrət daşı oldu! Torpaq həsrətiylə vuran ürəyi Əsgərlə yaşadı, Əsgərlə öldü.

Vətən əyilmədi, Vətən yaşadı. Alim zəkasıyla, əsgər silahıyla, ana laylasıyla Vətənə dayaq oldu.

www.kitabxana.net

Şair dostum Balayar Sadiq «Qəm yemə, qəm yemə, Ələkbər kişi» yazdı, köks ötürdü.

Şəhidlik hünərin məhək daşıdı,

Şəhidlik torpağın, yurdun yaşıdı.

Şəhid oğulları Vətən yaşadır.

Şəhidlik andını dağlar daşıdı.

Şəhidlik millətin qan yaddaşıdır.

…Lənkəranın mərkəzindən bir-birindən çox da aralı olmayan yaraşıqlı parkda, ağacların əhatəsində tunc qardaşların büstü ucalır: biri Əsgər Əliyevin, o biri Milli Qəhrəman Rövşən Abdullayevin abidəsidir. Tunc qardaşların ruhu vaxtsız ölümlə görüşə getdi. Onların cismi Vətənin bir ovuc torpağına döndü,

Vətən bir boy böyüdü. Onlar məzara apardı Vətən andını, öyüdünü…

www.kitabxana.net

İdris Şükürlü

Nasir, publisist, politoloq, Jurnalistlər Birliyinin (1984), AzərKİVİHİ-nin (2000) üzvü

Şükürov İdris Müti oğlu - 1957-ci il mayın 1-də Azərbaycan Respublikası Lerik rayonunun Şingədulan kəndində anadan olmuş, bu kənddə orta məktəbi bitirmişdir (1964-1974). Bir müddət sıravi kolxozçu işləmişdir. 1975-ci ildən 1976-cı ilə kimi "Bolluq uğrunda" (indiki "Lerik") qəzeti redaksiyasının mətbəəsində mürəttib işləmişdir. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsini qiyabi yolla bitirmişdir (1976-1984). 1976-1978-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1978-ci ildə Universitetin Jurnalistika fakültəsində təhsilini davam etdirməklə yanaşı, rayon qəzetində kitabxanaçı işləmişdir.

1981-1989-cu illərdə "Bolluq uğrunda" (indiki "Lerik") qəzeti redaksiyasında əbəbi işçi, 1989-cu ildən məsul katib işləmişdir. 1989-1991-ci illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) əyani şöbəsini bitirmişdir. 1991-ci ildə "Kənd həyatı" jurnalının cənub bölgəsi üzrə xüsusi müxbiri işləmişdir. 1992-ci ildə "Lerik" qəzetinin redaktoru təyin olunmuşdur.

2000-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyul tarixli Sərəncamı ilə "Respublikanın əməkdar jurnalisti" fəxri adına layiq görülmüşdür.

İ.M.Şükürlü ədəbi-bədii, publisistik yaradıcılıqla ciddi məşğul olur. 30-a yaxın kitabın tərtibçisi və redaktorudur.

Kitabları:

1. "Ölsəm, inanma!" (oçerklər), Bakı, "Şirvannəşr", 1996, 2000 nüsxə
2. "Gözəlliyi gözlərimdə apardım" (mənsur şeirlər), Bakı, "Təbriz", 1998, 500 nüsxə
3. "Ömür çırağı sönmədi" (sənədli povest), Bakı, "Əbilov,

www.kitabxana.net

Zeynalov və oğulları” İTK, 2002, 500 nüsxə

4. “Adsız qəhrəman” (sənədli povest), Bakı, “Planet-press” İTK, 2003, 500 nüsxə

5. “Seyid Mir Saleh Ağa ocağının nuru” (oçerklər), Bakı, “Avropa”, 2003, 500 nüsxə

6. “Əliheydər müəllimin arxeoloji cənnətdə tapıntıları”, Bakı, “Planet-press” İTK, 2004, 500 nüsxə

7. “Kitabların işığında”, Bakı, “Nurlan”, 2010.

(3 kitabı şəhidlik və Qarabağ mövzusundadır)

Mətbuatda uzunmüddətli əbədi-bədii, publisistik yaradıcılığına, hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərinə, vətəndaş mövqeyinə görə AzərKİVİHİ-nin “Nailiyyət”, “Kamil sənətkar”, “Qızıl qələm” mükafatlarına, Azərbaycan Jurnalistlər Birliyinin, Lerik Rayon İcra Hakimiyyətinin fəxri fərmanlarına layiq görülmüşdür. “Avropa” Nəşr Mətbu Evinin “İlin vətənpərvər jurnalisti” adına layiq görülməklə diplom və medalla təltif olunmuşdur.